# AZƏRBAYCAN VETERANI

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının orqanı

08-09 (150-151) 23 may 2020-ci il İctimai-siyasi qəzet


## Böyük Vətən müharibəsində həlak olan Azərbaycan övladlarının xatirəsi ehtiramla anılıb





Mayın 9-da faşizm üzərində tarixi Qələbədən 75 il keçir.

AZƏRTAC xəbər verir ki, bu münasibətlə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun məzarını ziyarət edərək abidəsi önünə gül dəstələri qoyub, müharibədə həlak olan bütün Azərbaycan övladlarının xatirəsini ehtiramla anıblar.

Qeyd edək ki, Azərbaycan xalqı faşizm üzərində tarixi Qələbəyə sanballı töhfələr verib. Bu Qələbənin qazanılmasında çox böyük payı olan xalqımız 600 min oğul və qızını cəbhəyə yola salıb. Onların 300 mindən çoxu döyüşlərdə qəhrəmanlıqla həlak olub. Həmin müharibə zamanı göstərdikləri igidliyə görə Azərbaycanın 123 nümayəndəsi Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilib.

Azərbaycan diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçib, yüzlərlə həmyerlimiz isə partizan dəstələrinin tərkibində vuruşub. Bu qələbədə Azərbaycan nefti həlledici əhəmiyyət kəsb edib. Azərbaycan sovet ordusu üçün yanacaq-sürtkü materiallarının əsas tədarükçüsü olub. Mühərrik yağlarının 90 faizi, benzinin 80 faizi, neftin isə 70 faizi Azərbaycan tərəfindən təchiz olunub.

Böyük Vətən müharibəsində şərəfli döyüş yolu keçmiş Azərbaycan övladlarının tarixi şücaətləri hər zaman hörmətlə anılıb. Amma 1992-ci ildə Xalq Cəbhəsi çevriliş yolu ilə hakimiyyətə gələndə 9 May bayramını ləğv etmişdi və veteranlar mənəvi terrora məruz qalmışdılar. Xalqımızın ümummilli lideri Heydər Əliyev 1993-cü ildə hakimiyyətə qayıdandan sonra müharibə veteranlarının hüquqlarını bərpa etdi, onları "xalqımızın qızıl fondu" adlandırdı. Prezident İlham Əliyev də müharibə veteranlarının sosial problemlərinin həllini diqqət mərkəzində saxlayır, 9 May - Qələbə bayramı ərəfəsində onlara maddi yardımlar göstərilir.

Böyük Vətən müharibəsi bizim şanlı tariximizdir. O dəhşətli müharibədə misilsiz şücaətlər göstərən qəhrəman oğul və qızlarımız bu gün də hörmətlə xatırlanır və 75 il keçsə də onların qazandığı tarixi Qələbə öz əhəmiyyətini itirmir.



# Azərbaycan Prezidenti İlham Əliyev: “9 May - bizim ümumi Böyük Qələbə günümüzdür”

Bu gün strateji tərəfdaşlığa əsaslanan Azərbaycan-Rusiya ikitərəfli dostluq münasibətləri bütün istiqamətlər üzrə uğurla inkişaf edir

Rusiyanın nüfuzlu "Natsionalnaya oborona" (“Milli müdafiə”) jurnalının may buraxılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müsahibəsi dərc olunub. Qeyd edək ki, bu jurnal Rusiyada və beynəlxalq səviyyədə rəsmi dövlət qurumları, diplomatlar, siyasi, hərbi ekspertlər, tədqiqatçılar və digər mütəxəssislərdən ibarət geniş auditoriyaya malikdir.

Müəllifi İqor Korotçenko olan müsahibəni AZƏRTAC təqdim edir.

- İlham Heydər oğlu, qarşıdan Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi gəlir. Bu ümumi Qələbəyə Azərbaycanın töhfəsi nədən ibarət olub, Azərbaycanda yaşayan Böyük Vətən müharibəsi iştirakçılarını necə şərəfləndirmək planlaşdırılır?

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qələbə Günündə Böyük Vətən müharibəsi veteranları ilə görüşdə.

- Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi yaxınlaşır. Biz tarixdə bu əlamətdar günə qayğı ilə yanaşır, döyüş meydanında və arxa cəbhədə qələbəyə töhfə verənlərin xatirəsini ehtiramla yad edir, öz həyatları bahasına dünyanı faşizmdən xilas etmiş zabit və əsgərlərin igidliklərinə hörmətimizi bildiririk.

Azərbaycan bizim ümumi qələbəmizə böyük töhfə verib. Azərbaycanın 600 mindən çox nümayəndəsi müharibədə iştirak edib, onlardan 300 mini həlak olub, 120-dən çox Sovet İttifaqı Qəhrəmanı əslən Azərbaycandandır, bizim 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilib.

Qızıl Ordu üçün neftin 70 faizini, yanacağın 80 faizini və sürtkü yağlarının 90 faizini Azərbaycan təchiz edib, bunlar olmasaydı, müharibədə qalib gəlmək mümkün olmazdı. Təsadüfi deyil ki, faşist Almaniyası Bakını tutmağa can atırdı. Yeri gəlmişkən, mən bu barədə 2019-cu ilin oktyabrında MDB-nin Aşqabad Sammitində demişdim: məlum kadrlar var, orada Hitlerə üzərində alman dilində “Xəzər dənizi” sözləri yazılmış tort verirlər (Xəzər dənizinin sərhədlərinə qara rəngli şokolad süzülüb), o, svastikanı əlinə götürür və “Bakı” sözü yazılmış yerə qoyur. Bu, faşistlərin Azərbaycanın neft yataqlarını tutmaq planını vurğulayır.

Bizim müəssisələrdə gecə-gündüz hərbi texnika, o cümlədən məşhur “Katyuşa” raketləri istehsal edilirdi.

Azərbaycan elminin nümayəndələri də bizim ümumi qələbəmizə sanballı töhfə veriblər. Bunu bilən azdır, amma böyük Azərbaycan alimi Yusif Məmmədəliyev sonradan “Molotov kokteyli” adı ilə məşhurlaşmış yandırıcı qarışıq ixtira etmişdi.

Azərbaycanda formalaşdırılmış 416-cı Qırmızı Bayraqlı Taqanroq diviziyası Qafqazdan Berlinə qədər şanlı döyüş yolu keçib. Böyük Vətən müharibəsi cəbhələrində ləyaqətlə döyüşən, Azərbaycanın bayrağını uca tutan, xalqımıza xas olan vətənpərvərlik, cəsarət, doğma torpağın müdafiəsində dönməzlik kimi ən yaxşı keyfiyyətləri nümayiş etdirən bu diviziyanın döyüşçülərinin igidliyi və şücaəti ilə ölkəmizdə fəxr edirlər.

Bu ilin mart ayında Rusiya Federasiyasının Rostov vilayətinin qubernatoru Vasili Qolubevin başçılığı ilə nümayəndə heyəti Azərbaycana səfər etmişdi. Onlarla görüş zamanı mənə 1980-ci ildə o dövrdə Azərbaycanın rəhbəri olmuş ümummilli lider Heydər Əliyevin Rostov vilayətinə səfərinə həsr edilmiş bir videoalbom verdilər.

Heydər Əliyev həmin səfər zamanı Rostov vilayətinin faşizmdən azad edilməsinin rəmzi olan və müstəsna igidliklər göstərmiş 130-cu və 416-cı Azərbaycan atıcı diviziyalarının əsgərlərinin qəhrəmanlıqlarına həsr edilmiş “Sambek yüksəklikləri” memorialının açılışında iştirak edib.




İndi həmin memorialın yanında “Sambek yüksəklikləri” adlı xalq hərbi-tarixi muzey kompleksi yaradılır. O görüşdə qeyd edilmişdi ki, bu il həmin kompleksin açılışı planlaşdırılır. Rusiya tərəfinin 416-cı Taqanroq diviziyasının əsgər və zabitlərinin xatirəsini və igidliklərini ehtiramla yad etməsini biz çox yüksək qiymətləndiririk.

Bu gün Böyük Vətən müharibəsi veteranları Azərbaycanda dövlət tərəfindən böyük dəstək alır. Biz onların qəhrəmanlığını həmişə xatırlayırıq. Hər il mayın 9-da mən bu böyük tarixə həsr edilmiş təntənəli tədbirdə onlarla görüşürəm, biz həlak olanların xatirəsini birlikdə yad edir, onların məzarları üzərinə gül-çiçək, əkililər qoyuruq. Lakin təəssüf ki, müstəqilliyin ilk illərində vəziyyət belə deyildi. Özünü Xalq Cəbhəsi adlandıran bir qrup hərbi çevriliş yolu ilə hakimiyyətə gələndə onlar 9 May bayramını ləğv etdilər, müharibə veteranları təqiblərə, mənəvi terrora məruz qalırdılar, bəzi ölkələrdə indi də baş verən hadisələr o vaxt praktiki olaraq bizdə baş verirdi. Yalnız Heydər Əliyev hakimiyyətə qayıdandan sonra tarixi ədalət bərpa olundu, veteranlar yenidən dövlətin dəstəyindən istifadə etməyə başladılar, mayın 9-u ümummilli bayram elan edildi və biz o vaxtdan - 1994-cü ildən bu bayramı qeyd edirik, həmin gün qeyri-iş günüdür.

- Nasist canilərinin, o cümlədən postsovet məkanında qəhrəmanlaşdırılmasına qarşı mübarizə hazırda həmişəkindən daha aktualdır.

- Bu gün tarixi yenidən yazmaq, faşistləri qəhrəmanlaşdırmaq, tarixi həqiqəti təhrif etmək kimi təhlükəli meyillər müşahidə edirik. Biz buna çox ciddi yanaşmalıyıq. İstər tarixin yenidən yazılması, istərsə də faşizmin qəhrəmanlaşdırılması qətiyyən yolverilməzdir.

Qeyd etmək istərdim ki, bu məsələdə həm Rusiyanın, həm də Azərbaycanın mövqeləri tamamilə eynidir. Biz Böyük Vətən müharibəsi haqqında həqiqətin təhrif edilməsi, tarixin yenidən yazılması, faşizmin və faşistlərin qəhrəmanlaşdırılması cəhdlərinə qarşı qətiyyətlə mübarizə aparırıq. Bizim mövqelərimiz həm tarixi həqiqətə, ədalətə, həm də buna əsaslanır ki, gələcək nəsillər kimin təcavüzkar və kimin təcavüz qurbanı olmasına, kimin qalib gəlməsinə və bu Qələbənin nəyin bahasına qazanılmasına heç vaxt şübhə etməsinlər.

Ötən ilin dekabr ayında Sankt-Peterburqda qeyri-formal Sammitdə Rusiya Prezidenti Vladimir Vladimiroviç Putin İkinci Dünya müharibəsi dövrünə aid bir sıra sənədlər təqdim etdi. Bu sənədlərin çoxu əvvəl məlum deyildi. Hesab edirəm ki, bu faktın böyük əhəmiyyəti olub, çünki müharibənin tarixi ilə bağlı bir sıra məqamlara aydınlıq gətirib. Real faktların məlum olmaması, onları bilməmək çox vaxt tarixi həqiqətin təhrifinə gətirib çıxarır. İkinci Dünya müharibəsinin tarixi məsələsində bu, tarixi yenidən yazmaq və faşizmi qəhrəmanlaşdırmaq kimi təhlükəli meyillərlə bağlıdır. Buna görə belə sənədlərin açılması, əlbəttə ki, tarixi həqiqətə xidmət edir.

Təəssüf ki, MDB məkanında, o cümlədən Ermənistanda da faşizmin qəhrəmanlaşdırılması baş verir. Ermənistanın əvvəlki hakimiyyəti Yerevanın mərkəzində faşist cəllad və satqın, alman faşistlərinə Qaregin Njde ləqəbi ilə xidmət etmiş Qaregin Ter-Arutyunyana heykəl qoyub. MDB ölkələrindən olan müharibə veteranlarının böyük bir qrupu Ermənistanın əvvəlki rəhbərliyinin bu həyasız addımına qarşı dəfələrlə qəti etirazını bildirib. 2019-cu ilin mayında Rusiya Xarici İşlər Nazirliyi “Nasizmin qəhrəmanlaşdırılması, neonasizmin və irqçiliyin müasir formalarının, irqi ayrı-seçkiliyin, ksenofobiyanın və onlarla bağlı dözümsüzlüyün yayılmasına şərait yaradan praktikanın digər növləri ilə bağlı vəziyyət haqqında” məruzə təqdim edib. Məruzədə deyilir: “Ermənistanın keçmiş hakim Respublika Partiyası üçüncü Reyx ilə əməkdaşlıq etməsi barədə məlumat olan millətçi təmayüllü Qaregin Njde kimi heç də birmənalı olmayan siyasi xadimin xatirəsinin əbədiləşdirilməsi üçün addımlar atıb”. Bu, Rusiya Xarici İşlər Nazirliyinin mövqeyidir. Rusiya Federasiyasının Müdafiə naziri, ordu generalı Sergey Şoyqunun sədrliyi ilə Rusiya Federasiyası Müdafiə Nazirliyinin baş redaksiya komissiyası tərəfindən nəşr edilmiş 12 cildlik “1941-1945-ci illərin Böyük Vətən müharibəsi” ensiklopediyasının “Böyük Vətən müharibəsi illərində gizli müharibə, kəşfiyyat və əks-kəşfiyyat” nəşrinin 6-cı cildində dərc edilmiş “Müharibənin son dövründə hərbi əks-kəşfiyyat fəaliyyəti” sərlövhəli məqalədə deyilir: “Dromedar” abverqrup-114 haqqında agentura işi çərçivəsində əks-kəşfiyyatçılar daşnak ordusunun keçmiş generalı, almanların yanında Njde ləqəbi ilə xidmət etmiş mühacir Ter-Arutyunyanı tapıb və həbs ediblər. O, Böyük Vətən müharibəsi dövründə Bolqarıstan ərazisində erməni millətindən olan 30-dan çox agenti cəlb edib, onların təxribat hazırlığında və pozucu fəaliyyət üçün Qızıl Ordunun arxa cəbhəsinə çatdırılmasında iştirak edib. SMERŞ əməkdaşları 17 təxribatçını tutub, qalanlar barəsində axtarış elan ediblər”. Njde Avropanın yəhudi əhalisinə qarşı Holokostda da iştirak edib. 1942-ci ildə o, Sovet İttifaqına qarşı döyüşən erməni legionu təşkil edib. Yeri gəlmişkən, Njdenin əsas şüarı belə idi: “Almaniya üçün həlak olan Ermənistan üçün həlak olur”. Burada necə deyərlər, şərhə ehtiyac yoxdur. Njde həbs edildi və ömrünü Vladimir həbsxanasında başa vurdu. 2016-cı ildə Ermənistan paytaxtının mərkəzində bu satqın cəllada az qala 6 metr hündürlüyündə abidə qoyulub. Təəssüf ki, Ermənistanın yeni hakimiyyəti bu heykəli sökmədi. Hesab edirəm ki, MDB məkanında faşizmin qəhrəmanlaşdırılmasına yol verilməməlidir.

- Sizin fikrinizcə, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasının yolları və prinsipləri necədir?

- Ermənistanın Azərbaycana qarşı 25 ildən çox davam edən təcavüzü ölkəmizin ərazisinin təqribən 20 faizinin işğal edilməsinə gətirib çıxarıb. Nəticədə 1 milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb.

Həm tarixi ədalət, həm də beynəlxalq hüquq baxımından Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir. Qeyd etməliyəm ki, “Qarabağ” adının özü Azərbaycan sözüdür. Tarixdən məlumdur ki, 1805-ci ildə Qarabağ xanı İbrahim xan tərəfindən Rusiya ordusunun generalı Sisiyanovla imzalanmış sazişə görə Azərbaycanın Qarabağ xanlığı müstəqil ölkə kimi Rusiya imperiyasının tabeliyinə keçib. Kürəkçay sazişi adlanan bu sənədin mətnini internetdə tapmaq olar. Həmin sənəddə Qarabağın erməni əhalisi barədə heç nə deyilmir. 1813-cü və 1828-ci illərdə imzalanmış Gülüstan və Türkmənçay müqavilələri əsasında Azərbaycanın qalan əraziləri də Rusiya imperiyasının tərkibinə keçib. Həmin dövrdə ermənilər İrandan və Şərqi Anadoludan Azərbaycanın Qarabağ regionuna köçürməyə başlayıblar. Beləliklə, yüz minlərlə erməni köçkün tarixi Azərbaycan torpağına gəlib çıxıb.

Prezident İlham Əliyev Azərbaycan Ordusunun silahlarının müasir nümunələri və hərbi qulluqçuların perspektivli təchizatı ilə tanış olur.

Sonradan, 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti yaradılanda onun ilk fərmanlarından biri İrəvanın Azərbaycanın tərkibindən Ermənistanın tərkibinə verilməsi və Ermənistanın paytaxtı elan edilməsi haqqında fərman olub. Bu da tarixi faktdır. 1921-ci ildə bolşeviklər partiyasının Qafqaz bürosu Dağlıq Qarabağın Azərbaycanın tərkibində saxlanması haqqında qərar qəbul edib. Bəzi erməni tarixçilərinin yazdığı kimi, Azərbaycana verilməsi haqqında yox, məhz saxlanması haqqında. Bu da tarixi faktdır. Daha bir tarixi fakt ondan ibarətdir ki, 1923-cü ildə Azərbaycan Sovet Sosialist Respublikası Azərbaycanın tərkibində Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması haqqında fərman verib.

Azərbaycan BMT-yə daxil olanda da, o, özünün tam ərazi bütövlüyü çərçivəsində daxil olub. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ərazi bütövlüyü, bütün dünya tərəfindən qəbul edilmiş BMT-nin Nizamnaməsi və Helsinki Yekun Aktı çərçivəsində həll edilməlidir.

Buraya BMT Təhlükəsizlik Şurasının erməni qüvvələrinin işğal edilmiş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnaməsini, ATƏT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti və digər beynəlxalq təşkilatların qətnamələrini, həmçinin “Dağlıq Qarabağ respublikası” adlandırılan qanunsuz qurumun heç bir ölkə tərəfindən tanınmamasını da əlavə etsək görərik ki, münaqişə Azərbaycanın ərazi bütövlüyünün tanınması və onun suverenliyinə hörmət müstəvisində həll edilməlidir. Erməni qoşunları işğal edilmiş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmalı, bu torpaqlardan qovulmuş qaçqınlar və məcburi köçkünlər öz tarixi yurdlarına qaytarılmalıdır. İşğal edilən təkcə Dağlıq Qarabağ deyil. Ona bitişik 7 rayon da işğal olunub. Həmin 7 rayonda heç vaxt ermənilər yaşamayıblar.

AZƏRBAYCAN VETERANI



08-09 (150-151) 23 may 2020-ci il

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev 2016-cı ildə erməni işğalından azad edilmiş ərazilərdə komanda məntəqəsinə baş çəkərkən operativ şəraitlə tanış olarkən.

Münaqişə ilə əlaqədar onu da qeyd etməliyəm ki, bu yaxında erməni təbliğatına və bütövlükdə bu məsələ ilə əlaqədar Ermənistanın mövqeyinə növbəti böyük zərbə vurulub. Əslində, bu zərbəni onlar özləri özlərinə vurublar. Əlbəttə, bizim məqsədyönlü fəaliyyətimiz, beynəlxalq təşkilatlarla əlaqələrimiz bu zərbəni gücləndirib. Söhbət qondarma "Dağlıq Qarabağ respublikası"nda keçirilmiş qondarma "prezident seçkiləri" haqqındadır. Bu "seçkilər" bir daha göstərdi ki, heç kəs bu qanunsuz hərbi xunta rejimini tanımır. "Seçkilər"dən sonra aparıcı beynəlxalq təşkilatlar onları tanımadı, bu barədə açıq bəyanatlar səsləndi. ATƏT-in Minsk qrupunun həmsədrləri Rusiya, ABŞ və Fransa bəyanatla çıxış etdilər. ATƏT-in Parlament Assambleyası, Avropa İttifaqı, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və Avropa Parlamenti bəyanatlarla çıxış etdilər. Bütün bu təşkilatlar həmin "seçkiləri" tanımadılar və bir daha göstərdilər ki, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir. Bu, bir daha nümayiş etdirdi, - mən bunu demişəm, bir daha demək istəyirəm, - Dağlıq Qarabağ Azərbaycandır və nida işarəsi.

Biz beynəlxalq ictimaiyyəti və ATƏT-in Minsk qrupunun həmsədr ölkələrini bu təcavüzkar ölkəyə ciddi təzyiq göstərməyə çağırırıq ki, sülhyaratma prosesi yerində saymasın.

- Azərbaycan Silahlı Qüvvələrinin müasir vəziyyətini necə qiymətləndirərdiniz?

- Son illərdə Azərbaycan ordu quruculuğunda böyük uğurlar qazanıb. Bu gün ölkənin Silahlı Qüvvələrini möhkəm intizam, vətənpərvərlik, yüksək mənəvi mübarizlik ruhu və döyüş qabiliyyəti səciyyələndirir. Silahlı Qüvvələr ən müasir silahlar və hərbi texnika ilə təchiz edilib. Şübhəsiz, bütün bunlar son illərdə ölkənin hərbi qüdrətinin möhkəmlənməsinə gətirib çıxarıb.

Rusiyadan Azərbaycana silah təchizatının həcmi 5 milyard dollar təşkil edir.

"Global Firepower-2019"un hesabatına görə, Azərbaycan dünyanın ən güclü ordularının reytinqində 52-ci yerdədir. Xüsusi qeyd etmək istəyirəm ki, 2006-cı ildə bizdə Müdafiə Sənayesi Nazirliyi yaradılıb. Son illərdə 20-dən çox hərbi zavod fəaliyyətə başlayıb. Bu zavodlarda 2000-dən çox adda hərbi təyinatlı məhsullar istehsal edilir, ordumuz həmin məhsullarla təchiz olunur. Eyni zamanda, biz hərbi məhsulları ixrac edirik.

Son illərdə ən müasir texnika və silahlar alınıb. Onların arasında yüzlərlə zirehli texnika, çoxsaylı keşikçi gəmiləri və hərbi gəmilər, hava hücumundan müdafiə sistemləri, onlarla döyüş təyyarəsi, yüzdən çox döyüş, hərbi-nəqliyyat və nəqliyyat helikopterləri, ən müasir pilotsuz kəşfiyyat və döyüş uçuş aparatları, hava hücumundan, raketdən müdafiə vasitələri, ən müasir rabitə vasitələri, reaktiv yaylım atəşi sistemləri, operativ-taktiki raket kompleksləri var.

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Beyləqan rayonundakı hərbi hissədə xidmət və məişət şəraiti ilə tanış olur.

Biz hərbi qulluqçuların sosial həyatına xüsusi əhəmiyyət veririk, hərbçilərin xidmət şəraiti yaxşılaşdırılır. Son illərdə onlarla hərbi şəhərcik yaradılıb. Hərbçilərin xidmət şəraiti çox yaxşıdır. Son bir neçə ildə hərbi hissələrin, hərbi şəhərciklərin 80 faizdən çoxu yenidən tikilib və ya əsaslı təmir edilib. Qarşıdakı 2-3 il ərzində bütün hərbi şəhərciklər tamamilə təmir ediləcək. Hərbi qulluqçuların mənzil-məişət məsələləri həll edilir. Qəbul edilmiş qərar əsasında orduda 20 il qüsursuz xidmət etmiş hərbçilərə dövlət pulsuz mənzillər verir. Bu gün bizim hərbi hissələrdə 20 mindən çox mülki şəxs işləyir. Əvvəllər bu işləri əsgərlər görürdülər. Biz onları məişət işlərindən azad etmişik. Eyni zamanda, mülki şəxslərdən ötrü 20 mindən çox iş yeri açılıb.

Şübhəsiz, yuxarıda göstərilən, son illərdə görülmüş bütün tədbirlər Silahlı Qüvvələrin maddi-texniki bazasının daha da möhkəmlənməsinə, hərbi qulluqçuların sosial müdafiəsinin güclənməsinə səbəb olub və biz bu istiqamətdə atılan addımları davam etdirəcəyik.

- Rusiya ilə Azərbaycan arasında siyasət, iqtisadiyyat, hərbi-texniki əməkdaşlıq sahələrində və başqa istiqamətlər üzrə münasibətlərin vəziyyətini və inkişaf perspektivlərini Siz necə səciyyələndirərdiniz?

- Bu gün strateji tərəfdaşlığa əsaslanan Azərbaycan-Rusiya ikitərəfli dostluq münasibətləri bütün istiqamətlər üzrə uğurla inkişaf edir. Ölkələrimiz arasında çox fəal siyasi dialoq mövcuddur. Prezident Vladimir Vladimiroviç Putin ilə



mənim çoxsaylı şəxsi görüşlərim ikitərəfli qarşılıqlı əlaqələrin inkişafına çox ciddi təkan verir, həmçinin bizim regionda vəziyyətə də müsbət təsir göstərir.

Biz fəaliyyətimizin demək olar ki, bütün sahələrini - ticarət, nəqliyyat, energetika, humanitar sahə və turizmi əhatə edən beş yol xəritəsi çərçivəsində proqramı fəal rellaşdırırıq. Ötən ilin sonunda bu yol xəritələrinə daha ikisi - innovasiyalar və gənclər siyasəti üzrə yol xəritələri əlavə edilib.

Rusiya ilə Azərbaycan arasında dinamik inkişaf edən əlaqələr çox cəhətdən prezidentlər Vladimir Putinin və İlham Əliyevin qarşılıqlı münasibətlərinin dostluq və etimad xarakteri ilə müəyyən edilir.

Keçən il mən Rusiya Prezidenti Vladimir Putinin dəvəti ilə "Valday" Diskussiya Klubunun iclasında iştirak etmişəm. Hər il bütün dünyada siyasətçilərin, politoloqların, ekspertlərin və analitiklərin diqqətini cəlb edən bu tədbirə dəvət almış dörd dövlət başçısından biri mən idim. "Valday" Klubu dünya gündəliyindəki mühüm problemlərin müzakirəsi üçün ən vacib diskussiya platformalarından biri kimi özünü göstərib.

Rusiya ilə bizim münasibətlərimiz zamanın sınağından çıxıb. Hər iki tərəf bu münasibətləri strateji tərəfdaşlıq münasibətləri adlandırır. Bu, həqiqətən belədir. Biz həm qonşuyuq, həm də mehriban dostlar. Son dövrdə bizim münasibətlərimiz daha səmərəli və keyfiyyətli olub.

Biz beynəlxalq təşkilatlar çərçivəsində fəal qarşılıqlı əlaqə saxlayır, ən mühüm və ümdə məsələlərdə ənənəvi olaraq birbirimizi dəstəkləyirik. Biz BMT, ATƏT və əlbəttə MDB məkanında sıx qarşılıqlı fəaliyyətdəyik.

Bizim çox sıx iqtisadi, ticari münasibətlərimiz var. Azərbaycanda Rusiya kapitallı 700-ə yaxın şirkət fəaliyyət göstərir. Həcmi milyard dollarlarla ölçülən qarşılıqlı investisiyalar həyata keçirilir.

Ötən il ölkələrimiz arasında əmtəə dövriyyəsi təqribən 20 faiz artıb və 3 milyard dollardan çox olub.

Burada bir məqamı qeyd etmək çox vacibdir ki, koronavirus pandemiyası ilə əlaqədar vəziyyətə baxmayaraq, cari ilin birinci rübündə ölkələrimiz arasında əmtəə dövriyyəsi 2 faiz artıb, ixrac-idxal əməliyyatlarının həcmi də artıb. Bu da çox vacibdir ki, Şimal-Cənub nəqliyyat dəhlizi fəaliyyətini davam etdirir, o cümlədən bu dəhliz çərçivəsində yükdaşımalar və tranzit daşımaları həyata keçirilir. Azərbaycan ərazisindən keçməklə Rusiyadan Avropa istiqamətində Şimal-Qərb dəhlizi də işə salınıb. Ötən ilin sonunda Azərbaycanla Rusiyanın sərhədində Samur çayı üzərindən körpünün açılışı təkcə bu iki ölkə üçün deyil, bütövlükdə region üçün böyük əhəmiyyət kəsb edən hadisə olub. Ona görə ki, bu körpü beynəlxalq yükdaşımaların intensivləşdirilməsi, biznes əlaqələrinin genişlənməsi, habelə Şimal-Cənub və Şimal-Qərb nəqliyyat dəhlizlərinin inkişafı üçün yeni imkanlar yaradır. Keçən il Şimal-Cənub dəhlizi ilə yükdaşımaların həcmi 60 faiz artıb. Azərbaycan regionda əməkdaşlıq üçün yaxşı perspektivlər açan, Asiyadan Avropaya və əks istiqamətdə yüklərin daşınması məsafəsini və çatdırılması müddətlərini xeyli azaldacaq bu mühüm nəqliyyat layihəsinin reallaşdırılması ilə əlaqədar öz ərazisində bütün işi başa çatdırıb. Hesab edirəm ki, regionda mühüm nəqliyyat arteriyası kimi Şimal-Cənub dəhlizinə ehtiyac daha da artacaq .

Hərbi-texniki əməkdaşlıq fəal inkişaf edir. Rusiya və Azərbaycan prezidentlərinin birgə mətbuat konfranslarının birində deyildiyi kimi, Azərbaycanın Rusiyadan aldığı hərbi təyinatlı məhsulların həcmi 5 milyard dollara bərabərdir.

Humanitar sahədə əlaqələrimiz də uğurla inkişaf edir. Artıq neçə ildir ki, Azərbaycanda Moskva Dövlət Universitetinin filialı, həmçinin Birinci Moskva Dövlət Tibb Universitetinin filialı fəaliyyət göstərir. Azərbaycanın dövlətə məxsus bütün ali məktəblərində rus dilində bölmələr mövcuddur. Ölkəmizdə 25 min tələbə rus dilində oxuyur. Təhsilin rus dilində olduğu 338 məktəbdə 130 min şagird də rus dilində təhsil alır.

Bizim münasibətlərimizin bir göstəricisi həm ölkələr, həm də xalqlar arasında münasibətlərin ruhuna və xarakterinə ən parlaq sübutdur. 2019-cu ildə Azərbaycana Rusiyadan rekord sayda - bir milyona yaxın turist səfər edib. Bu ilin əvvəlində də yaxşı dinamika müşahidə olunurdu, lakin koronavirus pandemiyası turist axınını dayandırdı. Ümidvarıq ki, pandemiya başa çatandan və sərhədlər açılandan sonra rusiyalı turistlərin ölkəmizə səfərləri bərpa olunacaq. Ona görə ki, rusiyalılar burada özlərini rahat, adi şəraitdə olduğu kimi hiss edir, dil baryeri ilə bağlı çətinliklərlə üzləşmirlər.

Bu da sirr deyil ki, turistlər təkcə görməli yerlərə baxmaq və milli mətbəx nümunələrini dadmaq üçün getmirlər, onlar elə yerlərə gedirlər ki, orada özlərini təhlükəsiz, rahat, öz evlərində olduğu kimi hiss etsinlər.

Keçən il noyabrın 23-də Moskvada Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində əsaslı bərpa işlərindən sonra "Azərbaycan" pavilyonunun açılışı oldu. Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində "Azərbaycan" pavilyonunun bərpadan sonra açılışı ölkələrimiz arasında münasibətlərin dostluq xarakterinin daha bir təzahürü oldu.

- Dünyada strateji və enerji sabitliyinin dəstəklənməsinə Azərbaycanın töhfəsi nədən ibarətdir?

- Mən dəfələrlə demişəm ki, hər bir ölkənin enerji təhlükəsizliyi onun milli təhlükəsizliyinin ayrılmaz tərkib hissəsidir. Buna görə də əsas məsələ enerji müstəqilliyinin təmin edilməsi idi və biz buna nail olduq.

Son illərdə Azərbaycan elektrik enerjisinin və təbii qazın idxalçısından onların ixracatçısına çevrilib. 2003-cü ildən bəri Azərbaycanda 30-dan çox elektrik stansiyası tikilib. Bir neçə ildir ki, biz istehsal edilən elektrik enerjisinin artıq hissəsini ixrac edirik. Yeri gəlmişkən, biz ölkənin ekoloji vəziyyətinə böyük diqqət yetiririk, buna görə də son illərdə Azərbaycanda inşa edilən elektrik stansiyaları bütün ekoloji tələblərə cavab verir və respublikanın təbii qaz və su ehtiyatları əsasında işləyir.

Biz Azərbaycanda bərpaolunan enerjinin inkişafına da böyük diqqət yetiririk. Bu ilin yanvar ayında ilkin razılıq əldə edildi və bərpaolunan enerji sahəsində böyük təcrübəyə malik olan iki iri xarici şirkət Azərbaycanla ilkin sazişlər imzaladı. Həmin sazişlərə əsasən ölkəmizdə yalnız əcnəbi investorların hesabına ümumi gücü 440 meqavat olan iki elektrik stansiyası tikiləcək - biri külək enerjisindən, digəri günəş enerjisindən elektrik enerjisi istehsal edəcək.

Bizdə elektrotexnika sahəsinin infrastrukturu tamamilə modernləşdirilib. Davos Dünya İqtisadi Forumunun reytinqinə əsasən elektrik enerjisinin əlçatanlıq əmsalına görə Azərbaycan dünyada ikinci yeri tutur.

İri transmilli neft-qaz layihələrinin həyata keçirilməsi məsələsinə gəldikdə bizim enerji resurslarını bir neçə istiqamətdə ixrac edən 7 neft və qaz kəməri inşa olunub.

Cənub Qaz Dəhlizinin tikintisi uğurla başa çatmaq üzrədir. Bu dəhliz dörd layihədən ibarətdir:

- Ehtiyatlarının həcmi 1 trilyon kubmetrdən çox olan "Şahdəniz-2" qaz-kondensat yatağı;
- Cənubi Qafqaz qaz kəməri;
- TransAnadolu qaz kəməri (TANAP).

Yuxarıda göstərilən 3 layihənin reallaşması artıq başa çatdırılıb.

- TransAdriatik qaz kəmərinin (TAP) tikintisi üzrə işlərin 94 faizdən çoxu yerinə yetirilib.

Azərbaycan Prezidenti İlham Əliyev Xəzər qazını Avropaya çatdırmağa imkan verən yeni qaz kəmərləri şəbəkəsinin bir hissəsi olan Cənub Qaz Dəhlizinin tikintisinin başlanılması mərasimində.

Nisbətən yaxın vaxtlarda ehtiyatlarının həcmi minimum 300 milyard kubmetr qaza bərabər olan yeni "Abşeron" qazkondensat yatağı açılıb. Bu yataqda hasilatın gələn il başlanması gözlənilir. Bu ilin mart ayında "Qarabağ" iri neft yatağı kəşf edilib. Daha bir neçə perspektivli neft-qaz strukturu kəşfiyyat və işlənilmə mərhələsindədir. Beləliklə, bütün bunlar neft hasilatının sabit profilini və təbii qaz hasilatının artan həcmini təmin edəcək.

Biz lap əvvəldən OPEC+ formatında fəal iştirak etmişik. Qeyd etmək istəyirəm ki, OPEC+ formatı ideyasını ilk dəfə mən bir neçə il bundan əvvəl Davos Dünya İqtisadi Forumunun panel müzakirələrində irəli sürmüşəm. Azərbaycan bu yaxınlarda da 9-cu və 10-cu OPEC+ görüşlərində fəal iştirak edib. Bu görüşlərin digər iştirakçıları kimi, Azərbaycan da neft hasilatının azaldılması üzrə öhdəlik götürüb, özünü etibarlı və sabit tərəfdaş kimi göstərib.

Məmnuniyyətlə qeyd etmək istəyirəm ki, Azərbaycan Rusiya ilə ikitərəfli münasibətlərimizin bütün başqa sahələrində olduğu kimi, enerji sahəsində də çoxillik uğurlu əməkdaşlıq təcrübəsinə malikdir və mən əminəm ki, bu əlaqələr gələcəkdə də fəal inkişaf edəcək.

Sonda dost Rusiya xalqını Böyük Vətən müharibəsində Qələbənin yaxınlaşmaqda olan 75 illiyi bayramı münasibətilə təbrik etmək istərdim. Mən Rusiya Federasiyasının Prezidenti Vladimir Vladimiroviç Putin tərəfindən mayın 9-da Qələbə Gününün bayramı edilməsi üçün Moskvaya dəvət olunmuşam və bu bayram tədbirində iştirak etmək niyyətində idim. Lakin təəssüf ki, koronavirus pandemiyası ilə əlaqədar bu tədbir başqa vaxta keçirilib. 9 May bizim ümumi bayramımızdır. Bizim ümumi Böyük Qələbəmiz günüdür. Azərbaycanın və Rusiyanın bu bayrama münasibəti ölkələrimizi və xalqlarımızı daha da yaxınlaşdırır.

AZƏRBAYCAN VETERANI

# Mehriban Əliyeva: Ölkəmiz tarixi qələbəyə mühüm töhfələr verib və bu, hər bir azərbaycanlıya daim qürur və fərəh hissi yaşadıb



Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi İnstaqram səhifəsində 9 May – Faşizm üzərində Qələbə Günü münasibətilə paylaşım edib.

*"Əziz veteranlar!*

9 May – Faşizm üzərində Qələbə Günü münasibətilə sizə və sizin simanızda bütün Azərbaycan xalqına ən səmimi təbriklərimi yetirirəm.

Bu bayram həm sizin üçün, həm də ümumiyyətlə xalqımız üçün həmişə xüsusi əhəmiyyətə malik olub. Ölkəmiz tarixi qələbəyə mühüm töhfələr verib və bu, hər bir azərbaycanlıya daim qürur və fərəh hissi yaşadıb. Bu il sizin bu günü xüsusi səbirsizliklə gözlədiyinizi bilirəm. Çünki bu il Böyük Qələbənin 75 illiyi qeyd olunur. Həm Prezidentimiz, həm də mən 9 Mayda həmişə sizinlə görüşmüşük, bu əlamətdar tarixi sizinlə birgə qeyd etmişik. Təəssüf ki, bu il bütün dünyanı sarsıtmış koronavirus pandemiyası ilə bağlı ölkəmizdə tətbiq olunan karantin rejiminə görə sizinlə görüşə bilmirik.

Sizin mərdliyiniz, cəsarətiniz, şücaətiniz əsl vətənpərvərlik nümunəsidir. Biz sizi çox sevirik, sizinlə fəxr edirik! Böyük Qələbə Gününüz mübarək!"

# Azərbaycan veteranları Qələbə gününə həsr olunmuş telegörüşlərdə iştirak ediblər



Respublika Veteranlar Təşkilatının rəhbərliyi faşizm üzərində Qələbənin 75-ci ildönümü münasibətilə iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun abidəsini ziyarət edib, önünə əklil qoyub, müharibədə həlak olan bütün Azərbaycan övladlarının xatirəsini ehtiramla anıblar.

Respublika Veteranlar Təşkilatından AZƏRTAC-a



bildiriblər ki, qurumun sədri general-polkovnik Tofiq Ağahüseynov və sədr müavini polkovnik Cəlil Xəlilov MDB dövlətlərinin təşkilatçılığı ilə 9 May - Qələbə Günü münasibətilə keçirilmiş telegörüşlərə qatılıb, Azərbaycan xalqının qələbəyə verdiyi töhfələrdən, bu gün veteranlara göstərilən yüksək diqqət və qayğıdan danışıblar. Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə keçirilən telekonfransda isə general-polkovnik T.Ağahüseynov Azərbaycanın oğul və qızlarının İkinci Dünya müharibəsində rəşadətli döyüş yolundan söhbət açıb, gəncləri vətənpərvər olmağa, sülhü və əmin-amanlığı qorumağa səsləyib. Qeyd edib ki, gəncləri-miz Böyük Vətən müharibəsi veteranlarının göstərdiyi igidliklərdən xəbərdar olmalı, erməni faşizminə qarşı mübarizədə bu böyük qəhrəmanlıqları təkrarlamalıdırlar.

Polkovnik Cəlil Xəlilov telekonfransda çıxış edərək əlamətdar gün münasibətilə bütün veteranları təbrik edib, Böyük Vətən müharibəsində Azərbaycan xalqının həm ön, həm də arxa cəbhədəki fədakarlığını, əvəzsiz xidmətlərini xatırladıb. Qeyd edib ki, İkinci Dünya müharibəsi Azərbaycan xalqının şanlı tarixinin bir parçasıdır. Qələbənin canlı yaddaşı isə veteranlardır. Xalqımız veteranları ilə hər zaman fəxr edir.

Mayın 9-da bir sıra xarici dövlətlərin veteran təşkilatlarının rəhbərləri Qələbə Günü münasibətilə Azərbaycan veteranlarını təbrik ediblər. Bundan başqa, Heydər Əliyev Fondunun, həmçinin müxtəlif dövlət qurumlarının nümayəndələri veteranları evlərində ziyarət edib, onlara sovqatlar çatdırıblar. Müharibə iştirakçılarına Qələbə Günü münasibətilə Prezident İlham Əliyevin Sərəncamı ilə təltif olunduqları Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi (1945-2020) yubiley medalı təqdim edilib.

Xatırladaq ki, Azərbaycan faşizm üzərində tarixi Qələbəyə sanballı töhfələr verib. Azərbaycan xalqı özünün 600 min oğul və qızını cəbhəyə yola salıb. Onların 300 mindən çoxu döyüşlərdə həlak olub. Müharibə zamanı göstərdikləri igidliyə görə 123 nəfər Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif olunub. Azərbaycanlılardan ibarət 416-cı, 402-ci, 396-cı, 223-cü və 77-ci milli diviziyalar Qafqazdan Berlinədək şanlı döyüş yolu keçib, yüzlərlə həmyerlimiz isə partizan dəstələrinin tərkibində vuruşub.

# Hərbi qulluqçular Böyük Vətən müharibəsi veteranlarını ziyarət ediblər





Faşizm üzərində Qələbənin 75-ci ildönümü münasibətilə hərbi qulluqçular Böyük Vətən müharibəsi veteranlarını ziyarət ediblər.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Müdafiə nazirinin bayram təbriklərini müharibə veteranlarına çatdıran hərbi qulluqçular nazirliyin adından onlara açıqcalar, gül dəstələri və birdəfəlik maddi yardım təqdim ediblər.

Fərdi qaydada ziyarət olunan müharibə veteranları üçün Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistləri tərəfindən müharibə illərinin vətənpərvərlik mahnıları ifa olunub.

Müharibə veteranları daim göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə və Müdafiə Nazirliyinə minnətdarlıqlarını bildiriblər.

# Böyük Vətən müharibəsində Qubadlı rayonundan 3500 nəfər iştirak edib




Qubadlı rayonundan olan Böyük Vətən müharibəsi veteranları evlərində ziyarət olunublar.

1941-1945-ci illərdə Azərbaycandan Sovet Ordusu sıralarında 700 min nəfər cəbhəyə göndərilib. Onlardan 3500 nəfəri Qubadlı rayonundan idi. Həmin şəxslərdən yalnız 1500-ü geri qayıdıb. Hazırda 4 nəfər Böyük Vətən müharibəsi iştirakçısı Qələbənin 75 illik yubileyini qeyd edir.

Görüşlərdə veteranlar xatirələrini bölüşərək, azərbaycanlıların cəbhədə göstərdikləri qəhrəmanlıqlardan söhbət açıb, dövlətimizin müharibə veteranlarına diqqət və qayğısına görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Hər veterana pul mükafatı və hədiyyələr təqdim edilib.

# Daxili işlər orqanlarında xidmət etmiş Böyük Vətən müharibəsi iştirakçıları ilə görüş keçirilib



Mayın 8-də Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazovun göstərişi ilə nazirliyin nümayəndələri faşizm üzərində Qələbədən sonra həyatlarını daxili işlər orqanlarında xidmətə sərf etmiş bir qrup Böyük Vətən müharibəsi iştirakçısının evində olublar.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, onlar nazir V.Eyvazovun səmimi təbriklərini və bayram hədiyyəsini veteranlara çatdırıblar.

Bildirilib ki, İkinci Dünya müharibəsində faşizm üzərində Qələbədən 75 il keçir. Qələbənin əldə olunmasında Azərbaycan xalqının da böyük töhfəsi və rolu olub. Ulu öndər Heydər Əliyev Azərbaycanda siyasi hakimiyyətə qayıtdıqdan sonra imzaladığı Sərəncamla hər il mayın 9-u Qələbə Günü kimi rəsmi dövlət bayramı səviyyəsində qeyd edilməyə, müharibə veteranlarının sosial-məişət şəraitinin, maddi rifahının yaxşılaşdırılmasına başlanıb, onların müalicələrinin təşkili istiqamətində əsaslı tədbirlər həyata keçirilib, müvafiq fərman və sərəncamlar imzalanıb.

Ümummilli Liderin Böyük Vətən müharibəsi iştirakçılarına, müharibədə həlak olanların ailələrinə göstərdiyi diqqət və qayğı bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Veteranlardan Müseyib İlyasov, Mehdi Mehdiyev, Əli Hacıyev, Əlikişi Cümşüdov, Səfər Abdullayev və Əzim İbrahimov göstərilən yüksək diqqət və qayğıya görə ölkəmizin başçısına və Daxili İşlər Nazirliyinin rəhbərliyinə dərin minnətdarlıqlarını bildiriblər.

# Naxçıvanda faşizm üzərində Qələbənin 75-ci ildönümü qeyd olunub

1941-1945-ci illər müharibəsində faşizm üzərində qazanılan tarixi Qələbənin 75-ci ildönümü Naxçıvan Muxtar Respublikasında qeyd olunub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, mayın 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan şəhərindəki Xatirə Kompleksinə gələrək abidə önünə gül dəstəsi qoyub, müharibədə həlak olmuş azərbaycanlıların xatirəsinə ehtiramını bildirib.

Azərbaycan faşizm üzərində tarixi Qələbəyə mühüm töhfələr verib. Bu şanlı Qələbədə böyük payı olan Azərbaycan xalqı cəbhəyə 600 mindən çox oğul və qızını yola salıb, onların təxminən yarısı döyüş meydanlarından geri qayıtmayıblar. Müharibə illərində göstərdikləri igidliyə görə 123 Azərbaycan vətəndaşı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilib. Azərbaycanlı çağırışçılardan və könüllülərdən ibarət 77-ci, 223-cü, 336-cı, 402-ci və 416-cı atıcı diviziyalar böyük qəhrəmanlıq nümunəsi göstərmişdilər.

402-ci atıcı diviziya Naxçıvanda formalaşaraq buradan birbaşa döyüş meydanına yola salınmışdı. Qafqazdan Berlinədək şərəfli döyüş yolu keçən həmyerlilərimiz göstərdikləri qəhrəmanlıqlarla adlarını tarixə yazıblar. Döyüşlərdə iştirak edən naxçıvanlılardan 3-ü Sovet İttifaqı Qəhrəmanı kimi yüksək ada layiq görülüb, bir nəfər "Şöhrət" ordeninin hər üç dərəcəsi, müharibə iştirakçılarından 102-si "Şöhrət" ordeninin ayrı-ayrı dərəcələri ilə, 105-i birinci və ikinci dərəcəli Böyük Vətən müharibəsi, 315-i "Qırmızı ulduz", 29-u "Qırmızı bayraq" ordenləri ilə təltif olunublar.

Azərbaycan xalqı faşizmlə mübarizəyə bütün imkanlarını səfərbər etmişdi. 1941-1945-ci illər müharibəsi zamanı Sovet İttifaqının sərf etdiyi neftin 70 faizindən çoxu, benzinin 80, mühərrik yağlarının isə 90 faizi Azərbaycanın payına düşüb.

"Hər bir gənc veteranlarımızın qəhrəmanlıq nümunələrindən, əmək fədakarlığından özü üçün nümunə götürməlidir. O qəhrəmanlıq nümunələri bugünkü nəslimiz, gələcək nəsillər üçün örnək, məktəb, təcrübə mənbəyi olmalıdır", - deyən ulu öndər Heydər Əliyev 1941-1945-ci illər veteranlarına daim qayğı göstərib, Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra 9 May ölkəmizdə Qələbə Günü kimi rəsmiləşdirilərək dövlət bayramları sırasına daxil edilib, müharibə veteranlarının imtiyazları və statusları bərpa olunub. Bu gün ölkəmizdə müharibə veteranlarına dövlət qayğısı sosial siyasətin əsas istiqamətlərindəndir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə və muxtar respublikada müharibə iştirakçılarına, arxa cəbhə veteranlarına xüsusi diqqət və qayğı göstərir.

Qələbə bayramı ərəfəsində ölkə Prezidenti cənab İlham Əliyevin müharibə veteranlarına qayğının artırılması, onların sosial müdafiəsinin daha da möhkəmləndirilməsi ilə bağlı sərəncamlar imzalaması ənənə halını alıb. Ölkə Prezidentinin "1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında" 2020-ci il 24 aprel tarixli Sərəncamı bu kateqoriyadan olan vətəndaşların xüsusi diqqət və qayğı ilə əhatə olunduqlarının daha bir ifadəsidir. Həmçinin dövlət başçısının 2020-ci il mayın 1-də imzaladığı Sərəncamla 1941-1945-ci illər müharibəsində döyüş əməliyyatlarında iştirak etmiş, faşist işğalçılarına qarşı gizli mübarizə aparmış, arxa cəbhədə çalışmış və həmin dövrdə SSRİ Silahlı Qüvvələrində xidmət etmiş şəxslər "Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi (1945–2020)" Azərbaycan Respublikasının yubiley medalı ilə təltif olunublar.



Naxçıvan Muxtar Respublikasında da müharibə iştirakçılarına xüsusi qayğı ilə yanaşılır. Hər il muxtar respublikada faşizm üzərində qələbə günü qeyd olunur. Müharibə veteranlarının sosial müdafiəsi gücləndirilir, onlar sanatoriya və kurortlara göndərilir, minik avtomobilləri və mənzillərlə təmin olunurlar.

## Böyük Vətən müharibəsində həlak olanların xatirəsi yad edilib

Mayın 9-da Müdafiə Nazirliyinin bir qrup şəxsi heyəti Böyük Vətən müharibəsində faşizm üzərində Qələbənin 75-ci ildönümü münasibətilə İkinci Dünya müharibəsində misilsiz qəhrəmanlıqlar göstərmiş xalqımızın igid oğullarının əziz xatirəsini dərin ehtiramla yad edib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, Bakıda keçirilən anım mərasimlərində hərbi qulluqçular Sovet İttifaqı qəhrəmanlarının xatirəsinə ucaldılmış abidələri və Qardaşlıq məzarlarını ziyarət ediblər.



Tədbirlər digər qarnizon və iri şəhərlərdə də keçirilib.

## Milli Kitabxana "Böyük Qələbə-75" adlı elektron məlumat bazasını virtual rejimdə təqdim edib

İkinci Dünya müharibəsində Qələbənin 75-ci ildönümü ilə əlaqədar "Böyük Qələbə-75" adlı elektron məlumat bazası virtual rejimdə istifadəçilərə təqdim edilib.




Milli Kitabxananın əməkdaşları tərəfindən hazırlanan elektron məlumat bazası rəsmi sənədlər, müharibə haqqında sitatlar, İkinci Dünya müharibəsi, xatirələr, məktublar, Böyük Vətən müharibəsi iştirakçılarının xatirələrinin əbədiləşdirilməsi, fotoqalereya və videoqalereya bölmələrindən ibarətdir. Elektron məlumat bazasında yerləşdirilən materiallar tam mətnləri ilə təqdim olunur.

# Böyük Vətən müharibəsi və Azərbaycan elmi

Bu gün alman faşizmi üzərində Qələbədən 75 il ötür. Bəşəriyyət tarixinin ən dəhşətli faciələrindən olan İkinci Dünya müharibəsində faşizmə qarşı mübarizədə azərbaycanlılar da iştirak edərək, həm ön, həm də arxa cəbhədə böyük qəhrəmanlıq və igidlik nümunələri göstəriblər. Azərbaycanın görkəmli alimləri isə öz bilik və təcrübələri ilə qələbə qazanılmasına böyük töhfələr veriblər.

Bu fikir AMEA Rəyasət Heyəti aparatının ictimaiyyətlə əlaqələr, mətbuat və informasiya şöbəsinin Elektron informasiya sektorunun müdiri Nərgiz Qəhrəmanovanın "Böyük Vətən müharibəsi və Azərbaycan elmi" məqaləsində yer alıb.

Məqalədə qeyd olunur ki, 1941-1945-ci illəri əhatə edən Böyük Vətən müharibəsində cəbhəyə 600 mindən çox azərbaycanlı yola salınıb. Müharibə zamanı göstərdikləri igidliyə görə 130-dan çox həmvətənimiz Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən çox əsgər və zabitimiz isə orden və medallarla təltif edilib.

İkinci Dünya müharibəsində qələbənin qazanılmasında Bakı nefti ən həlledici amillərdən biri olub. 1941-ci ilin iyulunda Azərbaycan SSR-dən 40 min nəfər, o cümlədən neft sənayesində çalışan işçilərin 40 faizi cəbhəyə səfərbər olunub. Həmin dövrdə Sovet İttifaqının sərf etdiyi neftin 70 faizindən çoxu, benzinin 80 faizi, motor yağlarının isə 90 faizi Azərbaycanın payına düşüb.

Müharibənin taleyinin həll olunmasında Azərbaycanın görkəmli alim və ziyalılarının mühüm xidmətləri olub. Kimyaçı alim, akademik Yusif Məmmədəliyevin ixtira etdiyi ən yüksək oktanlı təyyarə benzini, donmayan motor və sürtkü yağları, Katyuşa silahı üçün xüsusi mərmilər sayəsində bir çox ciddi uğurlar əldə olunub.

Qələbənin yaxınlaşmasında Əməkdar elm xadimi, akademik Əli Quliyevin də rolu danılmazdır. O, Yusif Məmmədəliyevlə birlikdə yüksək keyfiyyətli aviasiya yanacağı sayılan alkilbenzin alınması prosesinin tədqiqində, konkret olaraq sulfat turşusunun iştirakı ilə təbii qaz benzininin baş fraksiyasının alkilləşməsi prosesinin işlənib hazırlanması ilə məşğul olub.

Digər həmvətənimiz, görkəmli cərrah-alim, ictimai və dövlət xadimi Mustafa Topçubaşov müharibə illərində Azərbaycan Xalq Səhiyyə Komissarlığı Hərbi Xəstəxanalar İdarəsinin baş cərrahı vəzifəsində çalışıb. Həmin illərdə alim çoxsaylı ağır cərrahiyyə əməliyyatları apararaq yüzlərlə yaralını ölümün pəncəsindən xilas edərək yenidən həyata qaytarıb.

Humanitar elmlər sahəsində çalışan alimlərimiz isə millətin qəhrəmanlıq tarixindən, azadlıq hərəkatından, Azərbaycan sərkərdələrinin döyüş ənənələrindən bəhs edən əsərlər yaradaraq xalqa o çətin dövrlərdə böyük mənəvi dəstək göstəriblər.

Hələ müharibənin qızğın dövrlərində alimlərimizin arxa cəbhədəki fəaliyyəti Azərbaycan sovet tarixşünaslığında öz əksini tapıb. Ziyalılarımızın elmi və texniki düşüncəsi müharibə dövründə gərgin işləyərək cəbhənin ən zəruri ehtiyaclarına xidmət edib. Azərbaycan Elmlər Akademiyasının əməkdaşlarından alim-geoloq Şamil Əzizbəyov, Mirəli Qaşqay, Manaf Zairi və digərlərinin yeni kəşf və ixtiraları ön cəbhə üçün xüsusi əhəmiyyət daşıyıb.

Qabaqcıl ziyalılar müharibənin qızğın çağlarında ordu hissələrinə baş çəkərək hərbi-siyasi təbliğat aparıb, döyüşçülərdə ruh yüksəkliyi oyatmaq üçün əllərindən gələni ediblər. Kimyaçı alimlər silah və döyüş sursatı zavodları üçün zirehdələn mərmilərin, özüidarəolunan bombaların, tank əleyhinə elektrik minaların və s. hazırlanması üçün mühüm tövsiyələr işləyib hazırlayıblar.

Hər il respublikanın müxtəlif qurumlarında, eləcə də Azərbaycan Milli Elmlər Akademiyasının bəzi institut və təşkilatlarında 9 May - Qələbə günü ilə əlaqədar müxtəlif tədbirlər keçirilir, sərgilər və dəyirmi masalar təşkil olunur. Tədbirlərdə Azərbaycan xalqının faşizm üzərində qələbəsi, igid oğul və qızlarının qəhrəmanlığı, eləcə də müharibədə Bakı neftinin roluna dair məqalə, kitab və broşürlər nümayiş olunur.

AMEA Milli Azərbaycan Tarixi Muzeyində hər il Qələbə günü münasibətilə foto və rəsm əsərləri, azərbaycanlı müharibə qəhrəmanlarının şəxsi əşya və ləvazimatları, döyüş sursatları sərgilənir.

Bu il də muzey tərəfindən faşizm üzərində Qələbənin 75 illiyi münasibətilə tədbirlər planı hazırlanıb və mütəmadi olaraq silsilə videoçarxlar, məruzə və məqalələr onlayn formatda təqdim olunur.

İki dəfə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülən general-mayor Həzi Aslanov, general-polkovnik Tofiq Ağahüseynov, general-mayor Tərlan Əliyarbəyov və digərlərinə aid qiymətli materiallar eksponatlar sırasında diqqəti cəlb edir.

İkinci Dünya müharibəsində əldə edilən qələbə Azərbaycan xalqının fədakar və cəsarətli olduğunu, alimlərimizin isə dünya elminin ən görkəmli nümayəndələri sırasında uca zirvələr fəth etdiyini bir daha sübut edib.

AZƏRBAYCAN VETERANI

# İsmayıllıdan Almaniyayadək uzanan döyüş yolu - 96 yaşlı müharibə veteranı



1924-cü ildə İsmayıllının Tircan kəndində anadan olan Balakişi Fətullayev 1941-ci ildən 1945-ci ilədək davam edən Böyük Vətən müharibəsi zamanı ordu sıralarına qatılan 700 minə yaxın azərbaycanlıdan biridir.

96 yaşlı Balakişi Fətullayev olduqca sağlam və gümrahdır, yaddaşına da söz ola bilməz. Ensiklopedik



məlumata malik yaddaş boxçasını dəqiqliyinədək xatırlamağı və keçdiyi ömür yolunu maraqlı hekayət kimi vərəqləməyi bacarır.

Böyük Vətən müharibəsinin veteranı deyir ki, azərbaycanlılar müharibədə şücaətləri ilə seçiliblər. Hətta qızğın döyüşlərin birində xeyli sayda qüvvə ilə irəli atılsalar da, onların yalnız yarısı həmin döyüşdən sağ çıxıb. Vətənə qayıdanların da böyük əksəriyyəti bədənində güllə-qəlpə yarası, beynində müharibənin dəhşətli xatirələri ilə geri dönüblər.

"Almaniyayadək gedib çıxdıq, qalib gəldik, igid oğlanlarımız öz şücaətlərini göstərdilər, əsgərdən generala qədər yüksələn azərbaycanlılar da oldu. Buna baxmayaraq müharibəni pisləyirəm, çünki onun öz qanunları var. Böyükdən-kiçiyə hər kəsə zərər verir, illər keçsə də, ancaq acı günlər yaddaşlarda qalır. Biz hazırda da müharibə şəraitində yaşayırıq, mən bu yaşımda prosesləri izləyirəm və görürəm ki, Prezidentimiz də münaqişənin sülh yolu ilə həllinə çalışır. İnşallah bu problem də tezliklə həll olunsun və biz öz ərazi bütövlüyümüzü təmin edək", - deyə o vurğulayır.

Döyüşlərdə göstərdiyi igidliyə və əmək fəaliyyətindəki uğurlarına görə dəfələrlə orden və medallar qazanan Balakişi baba, ona dövlətimiz tərəfindən hər zaman diqqət və qayğı göstərildiyini deyir.

Bu günlərdə pandemiya səbəbindən evdən çölə çıxmayan veteran döyüşçüyə Heydər Əliyev Fondu tərəfindən sovqat da göndərilib. Eyni zamanda, Ali Baş Komandan İlham Əliyev tərəfindən Qələbənin 75 illiyi münasibətilə medalla təltif olunan Böyük Vətən müharibəsi veteranına 1500 manat məbləğində birdəfəlik maddi yardım da verilib.

# Naxçıvanın ən uzunömürlü ailəsinin başçısı Məhəmmədəli Sultanovun 100 illik yubileyi qeyd olunub

Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin və Ordubad Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə muxtar respublikanın ən uzunömürlü ailəsinin başçısı olan Məhəmmədəli Sultanovun 100 illik yubileyi qeyd olunub.

Ordubad rayonunun Tivi kəndində yaşayan, evliliyinin 74 ili tamam olan, İkinci Dünya müharibəsi veteranı Məhəmmədəli Sultanovun yubileyi ilə əlaqədar keçirilən tədbirdə Ordubad Rayon İcra Hakimiyyəti başçısının müavini Fərqanə Hüseynli, Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Aytən



Məmmədova, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Canməmməd Canməmmədov çıxış edərək keçirilən tədbirdə muxtar respublikada ahıl insanlara, eləcə də veteranlara göstərilən qayğıdan ətraflı danışıblar. Bildirilib ki, ahıl insanlar daim diqqət və qayğı ilə əhatə olunurlar, onların sosial müdafiəsi gündəngünə yaxşılaşır. Həmçinin muxtar respublikada yaşayan ahılların mütəmadi olaraq yubileyləri qeyd olunur. Bu yubileylərin xüsusi qeyd olunması cəmiyyətimizin hər bir üzvünün unudulmadığının göstəricisidir.

Diqqətə çatdırılıb ki, Məhəmmədəli Sultanov İkinci Dünya müharibəsində iştirak edib, ön cəbhədə vuruşub, şücaət göstərib, göstərdiyi fədakarlığa görə müxtəlif orden və medallarla təltif olunub. Dövlətimiz tərəfindən avtomobillə təmin olunub, Prezident təqaüdünə layiq görülüb.

Məhəmmədəli Sultanov ömrünün 27 ilini rabitə sahəsində fəaliyyət göstərib. Eyni zamanda, onun ailəsi muxtar respublikanın ən uzunömürlü ailəsidir. Məhəmmədəli Sultanovun 7 övladı, 25 nəvəsi, 42 nəticəsi və 3 kötücəsi vardır.

Çıxış edənlər Məhəmmədəli Sultanovun 100 yaşı tamam olması münasibətilə onu təbrik edib, uzunömürlü ailəyə cansağlığı və firavan həyat arzulayıblar. Yubilyara gül buketi və hədiyyələr verilib.

Məhəmmədəli Sultanov və ailə üzvləri dövlətimiz tərəfindən göstərilən diqqət və qayğıya görə öz minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, yubilyarla keçirilən görüş mövcud vəziyyətlə əlaqədar sosial izolyasiya qaydalarına uyğun, zəruri təhlükəsizlik tədbirlərinə riayət olunmaqla həyata keçirilib.

# İkinci Dünya müharibəsində faşizm üzərində Qələbənin 75 illiyi Masallı rayonunda da qeyd olundu

Böyük Vətən müharibəsində əldə olunmuş qələbənin 75 illiyi bu il özünəməxsus şəkildə qeyd olundu. Koronavirus pandemiyasının bəşəriyyətə "müharibə" elan etdiyi bir dövrdə, insanların bir-birlərindən izolyasiya olunması, sosial məsafənin (1,5-2 m) qorunması məcburiliyi şəraitində belə bir tədbirlərin həyata keçirilməsi böyük cürət tələb edir və göründüyü kimi biz koronavirusa meydan oxuyan cürətin sahibiyik. Əslində müstəqil Azərbaycanın inkişafı diaqramını



çəkmiş xalqımızın Ulu öndəri Heydər Əliyevin gərgin əməyinin nəticəsi olaraq Böyük Vətən müharibəsi veteranlarının sosial durumu diqqət mərkəzində saxlanılır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının, Birinci vitse-prezident Mehriban Əliyeva xanım- larının müharibə veteranları ilə görüşləri zamanı onlarla aparılan səmimi söh-bətlər, onların istənilən fikirlərinə böyük hörmətlə yanaşılması bu ahıl insanlarda " yaxşı ki, biz Vətənə layiqli xidmət etmişik" düşüncəsinə yeni vətənpərvərlik məzmunu, ruh verir.

Böyük Vətən müharibəsi veteranları ilə Qələbə görüşlərinin keçirilməsi, onlara mükafatların yaşayış yerlərində təqdim olunması rayonumuzda da ənənə halını almışdır və göründüyü kimi heç nə bu tədbirin keçirilməsinə mane ola bilməz. Mən bu kitabda belə görüşlərin bir neçəsi barədə söhbət açmışam.

2020-ci il faşizm üzərində parlaq Qələbənin 75-ci ildönümü ilə əlaqədar olaraq Masallı Rayon İcra Hakimiyyətinin başçısı Şahin Məmmədov yığcam tərkibdə : öz müvini Aybəniz Qafarova, Səfərbərlik və Hərbi Xidmətə Çağırış Üzrə Dövlət Xidməti Masallı Rayon Şöbəsinin rəisi polkovnik-leytenant Vəli Rzayev, Masallı rayon VT-nin sədri Məmmədağa Şiriyev, Rayon Mərkəzi Xəstəxanasının baş həkimi Cəlil Nəzərov iştirakında rayonun ərazisində yaşayan müharibə veteranlarının evlərində onları ziyarət etdi. Veteranlara Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə təsis edilmiş "Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi (1945-2020)" Azərbaycan Respublikasının və Rusiya Federasiyasının Prezidentinin müvafiq sərəncamı ilə təsis edilmiş "1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi" Rusiya Fedarasiyasının yubiley medalları təqdim olundu. Toplaşanlar böyük coşqu ilə şərəfli döyüş yolu keçmiş və yaşı 100 altında olan qəhrəman babaları mükafatların alınması münasibəti ilə səmimi olaraq təbrik etdilər.

Rayonun rəhbəri müharibə veteranlarının özləri və ailə üzvləri ilə çox səmimi söhbət apardı. Sosial problemləri ilə maraqlandı. Təəccüblü deyil ki, onların hər biri avtomobil almaq arzularını bildirdilər. Onu



qeyd etmək istəyirəm ki, belə bir söhbət var idi. Lakin koronavirusla mübarizəyə sərf olunan külli miqdarda vəsaitin büdcədən xərclənməsi öz təsirini göstərdi. Lakin əminəm ki, bu arzular yaxın illərdə reallaşacaqdır. Cənab Şahin Məmmədov veteranlarla ilk görüşdə qarşılıqlı ehtimad yarada bilməsi məni valeh etmişdi. Masallıda yaşayan Qulamhüseyn Məmmədovun oğlu Qarabağ müharibəsi veteranı Adil Məmmədovla söhbətlərindən aydın oldu ki, demək olar ki, Şahin müəllim də həmin cəbhədə olmuşdur. Bütün komandir heyəti ilə əlaqələri olub. Mənə aydın oldu ki, Şahin Məmmədov müharibənin nə olduğunu özü görüb və ona görə də müharibə veteranları ilə ünsiyyət qurmaqda çətinlik çəkmir.

Müharibə veteranları onlara göstərilən böyük diqqət və qayğıya görə möhtərəm Prezidentimiz cənab İlham Əliyevə, Birinci vitse-prezident Mehriban Əliyeva xanımlarına minnətdar olduqlarını bildirir və həmişə onlara arxa olacaqlarından əminliklə danışdılar.



# Veteranlar hər zaman xatırlanır

Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin əməkdaşları Qələbənin 75 illiyi münasibətilə bir qrup BVM iştirakçılarını təbrik etmişlər. Səbail rayonundan Ağakişiyeva Aidə Həmid qızı, Nərimanov rayonundan Timiçenko İvan İvanoviç, Nəsimi rayonundan Lisenko mariya Yemelyovna, Yasamal rayonundan Dadaşov Azər Tağı oğlu, Suraxanı rayonundan Yemikayeva Maxicamal Nizaməddinovna, Sabunçu rayonundan Həsənov Sabir Heydər oğlunun və digər veteranların evlərində olmuşlar.



# Heydər Əliyev Fondu Böyük Vətən müharibəsi veteranlarını evlərində təbrik edib

Heydər Əliyev Fondu hər il olduğu kimi, bu dəfə də 9 May - Qələbə Günündə Böyük Vətən müharibəsi veteranları ilə birgə olub. Koronavirus pandemiyası ilə əlaqədar Qələbə Gününün 75-ci ildönümü təntənəli bayram tədbirləri ilə qeyd olunmadığından veteranlarımız bu il fərqli formatda təbrik edilib.



AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın tapşırığına əsasən, 1941-1945-ci illər Böyük Vətən müharibəsi veteranları evlərində ziyarət olunub.



9 May - Qələbə Günü münasibətilə təbrik edilən müharibə iştirakçılarına Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə təltif olunduqları Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi (1945-2020) yubiley medalı təqdim edilib.



Bununla yanaşı, respublika üzrə 256 veteranın evində bayram süfrəsi qurulub, həmçinin onlara Heydər Əliyev Fondunun sovqatları çatdırılıb.

Azərbaycan Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın veteranlarımızın qayğılarını daim diqqətdə saxladıqları qeyd olunub və böyük Qələbənin qazanılmasında hünər göstərən həmvətənlərimiz bir daha bayram münasibətilə təbrik edilib.

# "Heç kim unudulmur, heç nə yaddan çıxmır" mövzusunda onlayn rəsm müsabiqəsi keçirilib

9 May - faşizm üzərində Qələbənin 75 illiyinə həsr olunmuş "Heç kim unudulmur, heç nə yaddan çıxmır" mövzusunda onlayn rəsm müsabiqəsi keçirilib. Müsabiqə Təhsil Nazirliyi 2 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin təşkilatçılığı ilə baş tutub. Bu barədə AZƏRTAC-a Təhsil Nazirliyindən məlumat verilib.




Bildirilib ki, mövcud karantin rejimi ilə əlaqədar onlayn formada keçirilən müsabiqənin əsas məqsədi böyüməkdə olan nəslin vətənpərvər ruhda tərbiyəsinə diqqət və qayğının daha da artırılması, 1941-1945-ci illər Böyük Vətən müharibəsində şücaət göstərən qəhrəmanlarımızın gənc nəslə tanıdılması, qələbənin qazanılmasında ölkəmizin əvəzsiz rolunun nümayiş olunması, eyni zamanda, istedadlı və perspektivli gənclərin üzə çıxarılmasından ibarətdir.

Qeyd edək ki, 3 yaş qrupu (6-9, 10-13, 14-18) üzrə keçirilən müsabiqəyə uşaq-gənclər inkişaf mərkəzlərinin 220 dərnək üzvü tərəfindən ümumilikdə 250 rəsm işi onlayn formada göndərilib. Müsabiqəyə təqdim edilən işlər A-4 formatında, müxtəlif texnikada (flomaster, quaş, sulu boya, pastel, yağlı boya) işlənib.

Yekunda münsiflər heyəti tərəfindən I, II və III yerlərin qalibləri müəyyənləşdirilərək diplomlarla mükafatlandırılıb.

# Qubalı döyüşçü ilə ailə quran belaruslu tibb bacısı - Lidiya Rüstəmova

İkinci Dünya müharibəsi iştirakçısı 96 yaşlı Rüstəmova Lidiya Antonovna Quba rayonunun Digah kəndində yaşayır.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, əslən Belarusun Vitebsk vilayətindən olan Lidiya Rüstəmova müharibə illərində tibb bacısı kimi fəaliyyət göstərib. Elə həmin vaxt da gələcək həyat yoldaşı qubalı Səfixan Rüstəmovla tanış olub.

Lidiya Rüstəmova tibbi heyətin tərkibində Belarus cəbhəsindən Berlinədək döyüş yolu keçib. Müharibədə göstərdiyi şücaətə görə dəfələrlə orden və medallarla mükafatlandırılıb.



Səfixan Rüstəmovla ailə həyatı quran Lidiya müharibədən sonra Qubaya köçüb. Onların 6 övladı dünyaya gəlib. Lidiya Rüstəmova Azərbaycana gəldikdən sonra da tibb sahəsində fəaliyyətini davam etdirib. Həyat yoldaşı S.Rüstəmov 1970-ci ildə dünyasını dəyişib. L.Rüstəmova bu günə kimi Belarusda yaşayan bacısı və digər doğmaları ilə əlaqə saxlayır.

Müharibənin bütün ağrı-acısını yaşamış Lidiya Rüstəmova 30 nəvə, 10 nəticə və 15 kötükcə sahibidir.

Faşizm üzərində Qələbənin 75 illiyi münasibətilə mayın 9-da




Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin aparat rəhbəri Ceyran Rəhmətullayeva Lidiya Rüstəmovanı evində ziyarət edib. Görüşdə müharibə veteranına komitə sədri Bahar Muradovanın təbrik məktubu və hədiyyələr təqdim edilib.

Görüşdə Prezident İlham Əliyev İkinci Dünya müharibəsinin ağır və çətin sınaqlarından keçmiş veteranların qayğılarına daim həssaslıqla yanaşdığı qeyd olunub. Bildirilib ki, Qələbə bayramı ərəfəsində Prezident İlham Əliyevin müharibə veteranlarına qayğının artırılması, onların sosial müdafiəsinin daha da möhkəmləndirilməsi ilə bağlı sərəncamlar imzalaması artıq ənənə halı alıb. İkinci Dünya müharibəsi illərində Azərbaycan xalqı həm ön, həm də arxa cəbhədə böyük qəhrəmanlıq və igidlik nümunələri göstərdiyi, Bakı neftinin faşizm üzərində Qələbə qazanılmasında mühüm rol oynadığı qeyd edilib.

Lidiya Rüstəmova döyüş yolu xatirələrini bölüşüb, xalqımıza sülh və əmin-amanlıq arzulayıb.

Hazırda Quba rayonunda həyatda olan 3 nəfər Böyük Vətən müharibəsi iştirakçısı var. İkinci Dünya müharibəsində iştirak edən 9 min 800 qubalıdan 6 min 600 nəfəri həlak olub.

# "Azərişıq" Böyük Vətən müharibəsi iştirakçılarına hədiyyə verib

Bu gün alman faşizmi üzərində Qələbənin 75-ci ildönümüdür. Böyük Vətən müharibəsi iştirakçısı olan qəhrəmanlarımız hər zaman dövlətin xüsusi qayğısı ilə əhatə olunub. Prezident İlham Əliyev müharibə veteranlarına, onların ailə üzvlərinə hər zaman xüsusi qayğı ilə yanaşıb.

"Azərişıq" ASC-dən AZƏRTAC-a bildirilib ki, bu xüsusi günlə əlaqədar İkinci Dünya müharibəsi iştirakçısı olan qəhrəmanlara ASC-nin hədiyyələri çatdırılıb.

Qeyd edək ki, 1941-ci ildə keçmiş SSRİ-nin İkinci Dünya müharibəsinə cəlb edilməsi müttəfiq respublika kimi Azərbaycanda da bütün sahələrdə inkişafın müvəqqəti dayanmasına və bəzi strukturların hərbi tələblərə uyğun profilə keçməsinə səbəb olub. Energetiklər də istisna təşkil etməyərək öz işlərini yenidən təşkil etməyə başlayıblar.

Təsadüfü deyil ki, müharibə dövründə təkcə "Qırmızı Ulduz" DRES-dən cəbhəyə 86 nəfər 4-cü dərəcəli çilingər getmişdi. Müharibənin ilk günlərində bu stansiyadan ordu sıralarına 280 nəfər, elektrik şəbəkələri idarəsindən isə 196 nəfər çağırılmışdı. Müharibə zamanı Azərbaycan Baş Enerji İdarəsindən cəbhəyə təxminən 1000 nəfər səfərbər olmuşdu. Onları qadınlar və çağırış yaşa qədərki yeniyetmələr əvəz etməyə başlamışdı. Beləliklə də müharibə illərində enerji sistemində işləyənlərin 52 faizini qadınlar təşkil edirdi.

Həmin dövrdə energetiklərin qarşısında əsas vəzifə xalq təsərrüfatını fasiləsiz elektrik enerjisi ilə təmin etməklə yanaşı, müharibə dövrünün yaratdığı digər vəzifələr də qoyulmuşdu. Azərbaycan energetikləri bütün vəzifələrin öhdəsindən artıqlaması ilə gəlmişdi.



## Niderlandda İkinci Dünya müharibəsinin iştirakçıları olmuş azərbaycanlı əsgərlərin xatirəsi anılıb

Avropa Azərbaycanlıları Konqresi (AAK) Niderlandda fəaliyyət göstərən DUFOA (Dutch Friends of Azerbaijan) və Brabant əyaləti Azərbaycanlılar Məclisi (BƏAM) azərbaycanlı və niderlandlı gənclərlə birlikdə ölkənin bir neçə şəhərində Azadlıq Gününü qeyd ediblər.

Tədbirlərdə AAK-ın prezidenti Sahil Qasımov, DUFOA-nın nümayəndəsi Leyla Babayeva və BƏAM-ın sədri Ofelya Babayeva, Brabant əyalətinin Oistervijk şəhərinin meri Hans Janssena, eləcə də "Medo" adı ilə tanınan, Niderlandın Milli Qəhrəmanı Məmməd Məmmədovun ailə üzvləri iştirak ediblər.



Tədbirlərdə çıxış edən Oistervijk şəhərinin meri və Məmməd Məmmədovun ailə üzvləri Azərbaycan Prezidentinə və xalqına İkinci Dünya müharibəsində Qələbənin 75 illiyi münasibətilə təbriklərini çatdırıblar.

AAK-ın prezidenti Sahil Qasımov Diaspor Komitəsinin sədri Fuad Muradovun salamlarını Oistervijk şəhərinin meri Hans Janssena, eləcə də Milli Qəhrəmanın qızı Nancy Duumen və digər ailə üzvlərinə çatdırıb və İkinci Dünya müharibəsində Qələbənin 75 illiyi münasibətilə onları təbrik edib.

Sonra tədbir iştirakçıları şəhərdə Milli Qəhrəmanın adını daşıyan Mamedovpad küçəsini ziyarət edərək qəhrəmanın xatirəsini yad ediblər.

Diaspor rəhbərləri və gənclər Niderlandın Amersfoort şəhərindəki sovet əsgərlərinin dəfn olunduğu "Leusden" qardaşlıq məzarlığına gələrək, burada İkinci Dünya müharibəsi qəhrəmanlarının xatirəsinə ucaldılmış abidə önünə gül dəstələri düzüb, eləcə də bu məzarlıqda uyuyan 22 azərbaycanlı əsgərin xatirəsini yad edərək məzarları üzərinə tər çiçəklər qoyublar. Anım tədbiri ölkədəki karantin qaydalarına uyğun təşkil edilib.

Şəhla Ağalarova
AZƏRTAC-ın xüsusi müxbiri, Haaqa

## Faşizmə qarşı vuruşmuş soydaşlarımızın xatirəsi Vyanada yad edilib



İkinci Dünya müharibəsində misilsiz qəhrəmanlıqlar göstərmiş xalqımızın igid övladlarının əziz xatirəsi faşizm üzərində Qələbənin 75 illik yubileyi münasibətilə mayın 9-da Vyanada ehtiramla yad edilib.

Azərbaycanın Avstriyadakı səfirliyinin əməkdaşları Qələbənin əldə olunması üçün həm ön, həm də arxa cəbhədə vuruşan, bu yolda canından keçən soydaşlarımızın xatirəsini yad etmək üçün Vyanadakı xatirə komplekslərini ziyarət ediblər.

Mərasim iştirakçıları Vyana mərkəzi qəbiristanlığında İkinci Dünya müharibəsində həlak olmuş əsgərlərin xatirəsinə ucaldılmış abidə önünə, Vyananın mərkəzi meydanlarından olan Şvartsenberqplatsda Avstriya paytaxtının faşist işğalçılarından azad edilməsində şücaət göstərmiş əsgərlərin şərəfinə ucaldılmış abidə-kompleks önünə əklil qoyub və onların ruhunu bir dəqiqəlik sükutla yad ediblər.

Elgün Niftəli
AZƏRTAC-ın xüsusi müxbiri, Vyana

## Bir sıra ölkələrin səfirliklərinin iştirakı ilə Xorvatiyada 9 May - Qələbə Günü ilə bağlı tədbir keçirilib



Azərbaycanın, Rusiyanın və Qazaxıstanın Xorvatiyadakı səfirliklərinin iştirakı ilə Xorvatiyanın Batina şəhərində 1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 75-ci ildönümünə həsr olunmuş bayram tədbiri keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə müharibə veteranları, Xorvatiyanın sabiq Prezidenti Stepan Mesiç, Azərbaycanın, Rusiyanın, Qazaxıstanın Xorvatiyadakı səfirləri, Xorvatiya Antifaşist Təşkilatının nümayəndələri və digər qonaqlar iştirak ediblər.

Fəxri qonaqlar əvvəlcə Böyük Vətən müharibəsində həlak olmuş zabit və əsgərlərin xatirəsinə ucaldılmış abidənin önünə əklillər qoyublar.

Azərbaycanın Xorvatiyadakı səfiri Fəxrəddin Qurbanov çıxış edərək Böyük Vətən müharibəsində Qələbənin əldə edilməsində Azərbaycanın ön və arxa cəbhədəki fəaliyyəti haqqında danışıb. Səfir bildirib ki, 1941-45-ci illərdə cəbhəyə göndərilmiş 600 minə yaxın azərbaycanlının 300 mindən çoxu həlak olub və itkin düşüb, onlardan göstərdikləri igidliyə görə 130-dan çox azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb. Müharibə illərində Azərbaycanın bütün sənaye sahələri məhz cəbhə üçün çalışmağa başlayıb və cəbhəyə göndərilən neftin 70-75 faizini, benzinin 85-90 faizini Bakı təmin edib.

Çıxışının sonunda səfir F.Qurbanov vurğulayıb ki, İkinci Dünya müharibəsinin veteranları xalqımızın fəxridir. Onların müharibə illərində göstərdiyi qəhrəmanlıq bu gün də böyük hörmətlə xatırlanır, həlak olan soydaşlarımızın xatirəsi ehtiramla yad edilir.

İqbal Hacıyev
AZƏRTAC-ın xüsusi müxbiri, Zaqreb

## Minskdə Sovet İttifaqı Qəhrəmanı Nəcəfqulu Rəfiyevin xatirəsi anılıb

Azərbaycanın Belarusdakı Səfirliyinin təşkilatçılığı, MDB İcraiyyə Komitəsinin və Minsk şəhəri Moskva rayonunun İcraiyyə Komitəsinin dəstəyi ilə İkinci Dünya müharibəsində qələbənin 75-ci ildönümü ilə əlaqədar Minskdə Sovet İttifaqı Qəhrəmanı Nəcəfqulu Rəfiyevin adını daşıyan küçədə qoyulmuş xatirə lövhəsinin qarşısında anım mərasimi keçirilib.

Səfirlikdən AZƏRTAC-a bildiriblər ki, mərasimdə MDB İcraiyyə Komitəsi sədrinin birinci müavini Viktor Quminski, İcraiyyə Komitəsinin əməkdaşları, Minsk şəhəri Moskva rayonunun İcraiyyə Komitəsinin sədri Tatyana Kolyadko, onun müavini Vitali Brel və diaspora nümayəndələri iştirak ediblər.

Əvvəlcə İkinci Dünya müharibəsində həlak olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Səfir Lətif Qəndilov çıxışı edərək Belarusun alman faşistlərindən azad edilməsi uğrunda minlərlə azərbaycanlının həlak olduğunu bildirib. Bu döyüşlərdə iştirak etmiş və Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş 14 azərbaycanlıdan birinin də Nəcəfqulu Rəfiyev olduğunu söyləyib. O, N.Rəfiyevin Belarusun Babruysk, Baranoviç, Minsk şəhərlərinin, Mogilyov vilayətinin bir sıra yaşayış məntəqəsinin işğaldan azad olunmasında böyük şücaət göstərdiyini qeyd edib. Səfir qələbəyə Azərbaycan xalqının qiymətsiz və əvəzsiz töhfələr verdiyini bildirərək, müharibə zamanı 600 mindən çox azərbaycanlının cəbhəyə getdiyini, onlardan 300 mininin həlak olduğunu və itkin düşdüyünü qeyd edib. Səfir Azərbaycan xalqının arxa cəbhədə də qəhrəmanlıq göstərərək, müharibə dövründə sovet hərbi texnikasının 90 faizini yanacaqla təmin etdiyini, çoxlu sayda silah sursat istehsal etdiyini, onlarla hərbi hospital açdığını, Moskva, Kiyev və digər ərazilərdən olan qaçqınları öz ailələrində yerləşdirdiklərini söyləyib. Səfir gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi üçün N.Rəfiyev kimi qəhrəmanların döyüş yolunun öyrənilməsinin və təbliğinin əhəmiyyətini vurğulayaraq, azərbaycanlı qəhrəmanların xatirəsinə göstərilən ehtirama görə Belarus xalqına minnətdarlığını bildirib.

Səfir təəssüflə qeyd edib ki, alman faşizmi üzərində qələbəyə bu qədər töhfə vermiş Azərbaycanın bu gün 20 faiz torpağı Ermənistanın işğalı altındadır. Qələbənin əldə olunmasında qəhrəmanlıq nümunələri göstərən Azərbaycan xalqı bu gün isə Ermənistan tərəfindən işğal olunan ərazilərinin azad olunması uğrunda mübarizə aparmaq məcburiyyətindədir.

MDB İcraiyyə Komitəsi sədrinin birinci müavini Viktor Quminski çıxışında Böyük Vətən müharibəsində qələbənin əldə olunmasında Sovet İttifaqında yaşayan xalqların rolunu vurğulayaraq, Azərbaycan xalqının istər ön cəbhədə, istərsə də arxa cəbhədə fədakarlıqla mübarizə apardığını bildirib.



Minsk şəhər Moskva rayonunun İcraiyyə Komitəsinin sədri Tatyana Kolyadko Belarusun alman faşistlərindən azad olunması uğrunda Azərbaycan xalqının qəhrəman oğullarının göstərdikləri şücaətə görə minnətdarlığını bildirib və belə tədbirlərin gənc nəslin vətənpərvər ruhda böyüməsi üçün çox önəmli olduğunu vurğulayıb.

Səfir sonda Azərbaycan xalqının böyük qələbənin əldə olunmasında göstərdiyi qəhrəmanlıqlarla əlaqədar bir faktı açıqlayıb. 21 aprel 1945-ci il tarixində 93 faizi azərbaycanlılardan ibarət olan 416-cı Taqanroq diviziyası Berlinə ilk daxil olan diviziyalardan biri olub və bu diviziya SSRİ-nin Berlindəki Səfirliyi, Reyxsbank, Berlin Universiteti və Daxili İşlər Nazirliyini azad edib. 1945-ci il mayın 2-də leytenant Rəşid Məcidovun rəhbərliyi ilə 3 döyüşçü Məmmədov, Əhmədzadə və Andreyev Berlinin Brandenburq qapısı üzərində qələbə bayrağını ucaldıblar.

Brandenburq qapısı önündə mitinqdə çıxış edən əslən Azərbaycandan olan general-mayor Vladimir Zyuvanov bildirib ki, Berlin uğrunda gedən tarixi döyüşlərdə sonuncu silah səsi burada eşidilib. Biz bunun tarixi şahidləriyik. Səfir öz çıxışında Belarusun Alman faşistlərindən azad edilməsində böyük xidmətləri olmuş iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun qəhrəmanlıqlarını xatırlayıb. Səfir Böyük Vətən müharibəsindən sonra Azərbaycan xalqının Belarus, Rusiya və Ukraynanın şəhərlərinin bərpası üçün şücaətlər və qəhrəmanlıqlar göstərdiyini söyləyib. Azərbaycan xalqının Sovet İttifaqı ölkələri ilə həmişə dost və qardaş münasibətdə olduğunu və heç nəyini əsirgəmədiyini bildirib. Xalqlarımızın İkinci Dünya müharibəsində rolu və yeri barədə məlumatların gənc nəslə çatdırılmasının vacibliyini vurğulayıb.

Səfir həmçinin qeyd edib ki, Azərbaycanın ümummilli lideri Heydər Əliyevin rəhbərliyi dövründə Böyük Vətən müharibəsi döyüşənlərinin xatirəsi həmişə əziz tutulub və hazırda Prezident İlham Əliyev tərəfindən də bu ənənə davam etdirilməkdədir. Müharibə iştirakçılarına, onların ailə üzvlərinə mənzillər verilir və böyük miqdarda maliyyə yardımı göstərilir.

L.Qəndilov çıxışının sonunda N.Rəfiyevin büstünün ucaldılması üçün Minsk şəhəri Moskva rayonunun İcraiyyə Komitəsinin sədri Tatyana Kolyadkoya müraciət edərək müvafiq icazə qərarının verilməsini xahiş edib.

T.Kolyadka qısa zaman ərzində N.Rəfiyevin büstünün ucaldılması üçün qərarın veriləcəyinə söz verib.

Tədbir "MİR" telekanalında, MDB İcraiyyə Komitəsinin və "Belta" informasiya agentliyinin internet səhifələrində işıqlandırılıb.

Emil Hüseynli
AZƏRTAC-ın xüsusi müxbiri
Minsk

# "Mauthauzen" əsir düşərgəsinin nasizmdən azad edilməsinin yubileyi virtual məkanda qeyd edilib

İkinci Dünya müharibəsinin başa çatmasının ildönümü hər il Avstriyada özünəməxsus şəkildə qeyd edilir. Burada əsas diqqət Avstriyanın Yuxarı Avstriya federal əyalətində yerləşən keçmiş "Mauthauzen" əsir düşərgəsinin alman nasistlərindən azad edilməsinə həsr olunan mərasimə yönəlir.

AZƏRTAC xəbər verir ki, koronavirus pandemiyası ilə əlaqədar bu il əsir düşərgəsinin azad edilməsi tədbirləri virtual məkanda qeyd edilib. Rassizm və antisemitizmə qarşı dözümsüzlüyə çağıran bu məkanla bağlı tədbirdə Avstriyanın Federal Prezidenti Aleksander Van der Bellen, Federal Kansler Sebastian Kurts, Parlamentin sədri Volfqanq Sobotka, ölkənin aparıcı partiyalarının təmsilçiləri çıxış ediblər. Çıxış edənlər bəşəriyyətə qarşı ən böyük cinayətlərin törədildiyi məkanlardan biri olan Mauthauzeni "unutqanlığa qarşı məkan" kimi dəyərləndirib və gənc nəsli nasist cinayətlərini unutmamağa çağırıblar.

İnternet vasitəsilə yayımlanan mərasimə 23 ölkədən izləyici və çıxışçılar qatılıblar.

Əsir düşərgəsinin azad edilməsi münasibətilə təşkil olunan tədbirlərdə Azərbaycanın Avstriyadakı səfirliyinin əməkdaşları hər il iştirak edir, ümumi anım monumenti və azərbaycanlı əsirlərin xatirəsinə ucaldılmış abidə önünə əklil qoyurlar.

Xatırladaq ki, 2001-ci ildə "Mauthauzen" əsir düşərgəsində, 2011-ci ildə isə "Ebenzee" əsir düşərgəsinin ərazisində Azərbaycanın Avstriyadakı səfirliyinin təşəbbüsü və birbaşa dəstəyi ilə azərbaycanlı əsirlərin xatirəsini əbədiləşdirən abidələr qoyulub. Rəsmi məlumata görə, müharibə illərində "Mauthauzen"də 81 azərbaycanlı əsir qətlə yetirilib. Azərbaycan səfirliyinin araşdırmaları nəticəsində "Mauthauzen" və onun tabeliyindəki digər əsir düşərgələrində 300-dək soydaşımızın əsir olduğu müəyyən edilib.

Yaradıldığı 1938-ci ildən İkinci Dünya müharibəsinin sonunadək "Mauthauzen" əsir düşərgəsində müxtəlif Avropa ölkələrindən 200 mindən çox hərbi əsir işgəncələrə məruz qalıb, onların təxminən yarısı (90 min nəfər) isə alman nasistləri tərəfindən məhv edilib. Avstriya ərazisində ən böyük əsir düşərgəsi olmuş "Mauthauzen"in ona yaxın ətraf ərazilərdə 49 "filialı" fəaliyyət göstərib, onlardan biri olan "Ebenzee"də 27 mindən artıq hərbi əsir yerləşdirilib.



1945-ci ildə ABŞ ordusu tərəfindən azad edilən "Mauthauzen" əsir düşərgəsi 1947-ci ildən tarixi xatirə kompleksi kimi fəaliyyət göstərir. Burada hərbi əsirlərin saxlandığı baraklar, "xəstəxana", həbsxana, qaz kameraları və krematoriya olduğu kimi saxlanılır və tarixin acı gerçəkliklərinin nümunəsi kimi qorunur.

Elgün Niftəli
AZƏRTAC-ın xüsusi müxbiri, Vyana

# Böyük Vətən müharibəsində Qələbənin 75-ci ildönümü Berlində də qeyd olunub



Mayın 9-da Berlin şəhərində Böyük Vətən müharibəsində Qələbənin 75-ci ildönümünə həsr olunmuş tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Almaniyada akkreditə olunmuş diplomatik missiyaların rəhbərləri ilə yanaşı, Almaniya Federal Prezidentinin administrasiyasının və Xarici İşlər Nazirliyinin dövlət katibləri, Berlin şəhərinin meri, Saksoniya Federal torpağının Baş Naziri, müharibə veteranları, habelə KİV nümayəndələri iştirak ediblər. Qeyd edək ki, koronavirus pandemiyasına görə, Berlin meriyası tərəfindən bu il təşkil olunan tədbirlərdə sosial distansiyaya riayət etmək şərti ilə məhdud sayda şəxsin iştirakına icazə verilib.

Tədbirə qatılan Azərbaycan Respublikasının Almaniyadakı fövqəladə və səlahiyyətli səfiri Ramin Həsənov Berlin şəhərinin Treptov və Tiergarten parklarında Sovet əsgərlərinin şərəfinə ucaldılmış abidələr önünə əklillər qoyub.

Eyni zamanda, Almaniyada nəşr olunan "Berliner Telegraph" jurnalının 9 may tarixli buraxılışında səfir R.Həsənovun Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi ilə bağlı müraciəti dərc olunub.

Müraciətdə sülhü və bəşəriyyəti faşizmdən xilas etmək üçün digər azadlıq sevən xalqlarla birlikdə Azərbaycan xalqının mübarizəsi, 600 mindən soydaşımızın cəbhəyə getməsi, onlardan yarısının döyüşlərdə həlak olması, 130-dan çox azərbaycanlının Sovet İttifaqı Qəhrəmanı adına layiq görülməsi, 170 mindən çox əsgər və zabitimizin müxtəlif orden və medallarla təltif edilməsi diqqətə çatdırılır. Azərbaycanlılardan ibarət alayların (416 "Taqanroq", 233 və 77) Avropa xalqlarının azadlığı uğrunda fədakarlıqla vuruşmaları, habelə minlərlə azərbaycanlının SSRİ və digər Avropa ölkələri ərazilərində müqavimət hərəkatları və partizan dəstələrində döyüşmələri qeyd olunur.

Müraciətdə qələbənin qazanılmasında Bakı şəhərinin əvəzsiz xidməti və Bakı neftinin faşizm üzərində qələbənin əsas amillərindən biri olduğu xüsusilə vurğulanır. Bildirilir ki, müharibə illərində Azərbaycan 130 növ silah, döyüş sursatı və müxtəli növ müdafiə məhsulları istehsal edib. Bakı şəhəri ölkəyə 74 milyon ton neft verib, eləcə də ölkə üzrə benzinin 80 faizi və bütün növ yağların 96 faizi onun payına düşüb. Qeyd olunur ki, Sovet ordusunun hərbi texnikasının (tanklar, təyyarələr, gəmilər) 45 hissəsi Bakı neftindən alınan məhsullarla təmin olunub.

Daha sonra, müraciətdə müasir dövrdə gənclərin mənəvi və vətənpərvərlik tərbiyəsi məsələsinin xüsusi əhəmiyyət kəsb etdiyi diqqətə çatdırılır və xüsusilə vurğulanılır ki, heç zaman tarixə yenidən nəzər salmağa, faşizmə bəraət qazandırmağa, eləcə də onun xidmətçilərini qəhrəmanlaşdırmağa yol verilməməlidir.

Səfir, eyni zamanda, ümummilli lider Heydər Əliyevin Sərəncamı ilə 9 May ... Faşizm üzərində Qələbə Gününün Azərbaycanda bayram və istirahət günü olduğunu, bu bayramın ən yüksək səviyyədə və geniş ictimaiyyətin, müharibə veteranlarının iştirakı ilə qeyd olunduğunu diqqətə çatdırır.

Vüqar Seyidov
AZƏRTAC-ın xüsusi müxbiri, Berlin

# Bir sıra ölkələrin Malayziyadakı diplomatik nümayəndəliklərinin rəhbərlərinin iştirakı ilə 9 May – Qələbə Günü münasibətilə tədbir keçirilib



Mayın 9-da Azərbaycanın Malayziyadakı səfiri Qaley Allahverdiyev alman faşizmi üzərində Qələbənin 75-ci ildönümü ilə əlaqədar Rusiya səfirliyi tərəfindən Kuala Lumpurda təşkil edilən tədbirdə iştirak edib.

Tədbirdə Qazaxıstan, Tacikistan, Türkmənistan, Qırğızıstan və Özbəkistanın Malayziyadakı diplomatik nümayəndəliklərinin rəhbərləri də iştirak ediblər.

Rusiyanın Kuala Lumpurdakı Elm və Mədəniyyət Mərkəzində təşkil edilən tədbirdə diplomatik nümayəndəliklərin rəhbərləri əvvəlcə Xatirə Nişanının önünə gül dəstələri düzüblər. Böyük Vətən müharibəsi zamanı qəhrəmancasına həlak olmuş döyüşçülərin xatirəsi bir dəqiqlik sükutla anılıb.

Sonra müharibə zamanı həlak olanların xatirəsini ehtiramla yad etmək məqsədilə ağac əkilib.

Tədbir iştirakçılarını Böyük Vətən müharibəsində faşizm üzərində Qələbənin 75-ci ildönümü münasibətilə təbrik edən Rusiyanın Malayziyadakı səfiri Nail Latipov Qələbənin əldə edilməsində canlarından keçmiş bütün xalqların nümayəndələrinin böyük əməyinin olduğunu vurğulayıb.

Hazırda Malayziyada fəaliyyət göstərən diplomatik heyətin duayeni, Azərbaycanın bu ölkədəki səfiri Q.Allahverdiyev də faşizm üzərində qələbənin 75-ci ildönümü münasibətilə təbriklərini çatdırıb. O, belə bir əlamətdar tədbirin təşkilinə və göstərilən qonaqpərvərliyə görə Rusiya səfirliyinə minnətdarlığını bildirib.

Vüqar Ağayev
AZƏRTAC-ın xüsusi müxbiri, Kuala Lumpur

# Moldova portalında Böyük Vətən müharibəsində azərbaycanlıların şərəfli döyüş yolundan bəhs edən məqalə yerləşdirilib




Moldovanın nüfuzlu Tribuna.md portalında Böyük Vətən müharibəsində azərbaycanlıların şərəfli döyüş yolundan bəhs edilən məqalə dərc edilib.

AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycan döyüşçülərinin sovet ordusu sıralarında qəhrəmancasına vuruşduğu qeyd edilir. Azərbaycanlıların 416-cı milli atıcı diviziyasının tərkibində Qafqaz dağlarından Berlinə qədər uğurlu döyüşündən bəhs edilib. Bildirilib ki, "Taqanroq diviziyası" Moldovanın və digər ölkələrin azad olmasında, faşizm üzərində Qələbənin qazanılmasında öz layiqli töhfəsini verib.

Yazıda, həmçinin İkinci Dünya müharibəsində faşizm üzərində Qələbədə Azərbaycan neftinin əhəmiyyəti qeyd edilib. Bildirilib ki, 640 min azərbaycanlı Sovet ordusu sıralarında cəbhəyə gedib, bunlardan 300 mindən çoxu qəhrəmancasına həlak olub.

Emil Hüseynli
AZƏRTAC-ın xüsusi müxbiri, Kişineu

# BMT Baş katibinin İkinci Dünya müharibəsində həlak olanlarla bağlı müraciəti yayılıb

BMT-nin Baş katibi Antonio Quterreşin İkinci Dünya müharibəsində həlak olanlara həsr edilmiş xatirə və barışıq günləri ilə bağlı videomüraciəti yayılıb.

Təşkilatın Azərbaycandakı nümayəndəliyindən AZƏRTAC-a bildirilib ki, müraciətdə deyilir: "Xatirə və barışıq günlərində biz İkinci Dünya müharibəsində həlak olmuş milyonlarla insanı yad edirik və onların çəkdiyi əzabları xatırlayırıq. Nasistlərin törətdiyi Holokost və digər ağır, dəhşətli cinayətləri heç vaxt unutmamalıyıq. 1945-ci ilin may ayında faşizm və tiraniya üzərində Qələbə yeni bir dövrün başlanğıcı oldu.

Beynəlxalq həmrəylik və ümumbəşəri dəyərlərimizin əhəmiyyətinin dərk edilməsi BMT-nin yaranmasına səbəb oldu. Təşkilatın əsas vəzifəsi gələcək nəsilləri müharibənin törətdiyi fəlakətlərdən qurtarmaqdır. Dünyamız hələ də münaqişələrin təsirindən əziyyət çəkir. Hətta hazırkı COVID-19 böhranı zamanı belə insanlar arasında nifaq salmaq və nifrət yaymaq üçün yeni cəhdlərin şahidi oluruq.

Qələbənin 75-ci ildönümünü qeyd edərkən 1945-ci ildən öyrənilmiş dərsləri xatırlayaq, eləcə də pandemiyaya son qoymaq və hər kəs üçün sülh, təhlükəsizlik və ləyaqət dolu gələcəyin qurulması üçün səylərimizi birləşdirək".

AZƏRBAYCAN VETERANI

## Şəkinin uşaq rəssamları müharibənin dəhşətlərini əsərlərində əks etdiriblər

İkinci Dünya müharibəsində faşizm üzərində Qələbənin 75-ci ildönümü münasibətilə Şəki şəhər Uşaq İncəsənət Məktəbinin təşkilatçılığı ilə keçirilən "Müharibə uşaqların gözü ilə" mövzusunda onlayn rəsm müsabiqəsinə yekun vurulub.




Şəki Regional Mədəniyyət İdarəsindən bildirilib ki, müsabiqəyə məktəbin rəssamlıq şöbəsi şagirdlərinin yağlı boya, akvarel, quaş, pastel, karandaş və digər texnikalarla çəkdikləri rəsmlər təqdim edilib. Müsabiqəyə onlayn formada təqdim olunan əsərlər arasında "Qələbəyə doğru", "Qızğın döyüş", "Acı xəbər", "Həzi Aslanov", "Əhmədiyyə Cəbrayılov", "Kəndin müdafiəsi", "Döyüş" və digər rəsmlər xüsusilə diqqəti cəlb edib.

Münsiflər heyətinin qərarına əsasən, Nuray Həmidova birinci, Elvin Abdurəhmanlı və İlahə Qaflanova ikinci, Nırgiz Məcidova, Xədicə Əliyeva və Ayxan Musazadə üçüncü yerə layiq görülüblər. Ləman Məmmədli və Elçin Salamzadə isə həvəsləndirici diplomlarla mükafatlandırılıblar.

## Astarada Böyük Vətən müharibəsi veteranlarına medallar təqdim olunub

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) Astara rayon şöbəsinin hərbi qulluqçuları 9 May - Qələbə Günü münasibətilə Böyük Vətən müharibəsinin bu rayondan olan iştirakçılarını - Pəlikəş kənd sakini Əli Əzizovu, Şiyəkəran kəndində yaşayan Hidayət Əliyevi, Cəbrayıl Nəhmətovu, Ərçivan qəsəbəsində yaşayan Qulam Baxşıyevi, Pensər kənd sakini Abdulla Qasımovu və İzzət Nəhmətovu ziyarət ediblər.

Xidmətdən AZƏRTAC-a bildiriblər ki, SHXÇDX-nin Astara rayon şöbəsinin rəisi, polkovnik Valeh



Nəcəfov faşizm üzərində Qələbənin ildönümü münasibətilə veteranları təbrik edib, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin daim veteranlara diqqət və qayğı göstərdiyini, onların sosial təminatının gücləndirilməsi istiqamətində müvafiq işlər görüldüyünü diqqətə çatdırıb.



Bildirilib ki, Böyük Vətən müharibəsində qazanılmış böyük Qələbədə Azərbaycanın və azərbaycanlıların tarixi xidmətləri var. Yüz minlərlə soydaşımız faşizmə qarşı qəhrəmanlıqla vuruşub, ölkəmizin təbii sərvətləri müharibəyə səfərbər olunub. Qələbənin qazanılmasında iştirak etmiş veteranlar dövlətimiz tərəfindən daim yüksək diqqət və qayğı ilə əhatə olunub.

Ziyarətlər zamanı veteranlara "1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi" yubiley medalı təqdim olunub.

Müharibə iştirakçıları onlara göstərilən yüksək səviyyədə diqqət və qayğıya, veteranların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlərə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildiriblər.

## Qubada Böyük Vətən müharibəsi iştirakçılarına yubiley medalları təqdim olunub

İkinci Dünya müharibəsində iştirak edən 9 min 800 qubalıdan 6 min 600 nəfəri həlak olub. Hazırda Quba rayonunda həyatda olan 3 nəfər Böyük Vətən müharibəsi iştirakçısından biri qadındır.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, faşizm üzərində Qələbənin 75 illiyi münasibətilə mayın 6-da



müharibə veteranları - Quba şəhər sakini Tahirov Tahir Hacıbala oğlu, Digah kənd sakini Rüstəmova Lidiya Antonovna və Xanəgah kənd sakini Kazımov Yunus Məmmədağa oğlu evlərində ziyarət olunub.

Rayonun rəhbər şəxslərinin iştirak etdiyi görüşlərdə müharibə veteranlarına yubiley medalları və qiymətli hədiyyələr təqdim edilib.

Bildirilib ki, İkinci Dünya müharibəsi illərində Azərbaycan xalqı həm ön, həm də arxa cəbhədə böyük qəhrəmanlıq və igidlik nümunələri göstərib. Bakı nefti faşizm üzərində Qələbə qazanılmasında mühüm rol oynayıb.

Müharibə veteranları döyüş yolu xatirələrini bölüşüb, xalqımıza sülh və əmin-amanlıq arzulayıblar.

## Respublika Xatirə Kitabı Redaksiyasından qələbənin 75 illiyinə töhfə

Bəllidir ki, faşist Almaniyasının SSRİ-yə qarşı elan olunmamış sürətli müharibə siyasəti xalqımıza da azadlıq uğrunda mübarizə aparmaq, totalitar dövlətlərin ciddi müdaxilələrindən alnıaçıq çıxmaq şücaəti nəsib edib. Elə ümummilli lider Heydər Əliyevin xeyir-duası ilə fəaliyyətə başlamış Respublika Xatirə Kitabı Redaksiyasının böyük qürur hissi ilə hazırladığı "Qələbə - 75: Azərbaycan




xalqının mübarizə əzmi" adlı xüsusi buraxılışı da məhz bu prioritetlərə toxunur.

Respublika Xatirə Kitabı Redaksiyasından bildirilib ki, xüsusi buraxılış faşizm üzərində qələbənin 75 illiyinə həsr edilib və 2020-ci ildə Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə çap olunub. Burada Böyük Vətən müharibəsi - dastanlaşmış, tarixləşmiş mübarizə tariximiz, İkinci Dünya müharibələri zamanı yaşananlar, xalq-dövlət birliyi, cəmiyyətləri acı girdaba tuş edən ideoloji proseslər barədə maraqlı fikirlərə toxunulub, dünyada birlik şüarının simvolik səciyyə kimi xarakterizə etdiyi, müharibənin xalqlarda milli-mənəvi birliyə çağırış olduğu, Azərbaycan xalqı da daxil olmaqla, digər sovet xalqlarının öz vətənlərində baş verən ictimai-siyasi prosesləri diqqətlə izləməsi və çətin anlarda vahid ideya uğrunda mübarizə aparmaları ciddi ictimai resurs kimi vurğulanıb.

Xüsusi buraxılışda, həmçinin Azərbaycanın Böyük Vətən müharibəsində iştirak etmiş qəhrəman oğulları haqda ətraflı məlumatlar verilib, Sovet İttifaqı qəhrəmanlarının müharibə əzmi, döyüş yolu, arxa cəbhədə çalışanların ağır əməyi, mübariz Azərbaycan qadınlarının döyüş əzmi geniş işıqlandırılıb, müharibə veteranlarına dövlət qayğısı, Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranlar Təşkilatının maddi-texniki bazasının gücləndirilməsi və bununla bağlı nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi barədə də məlumatlar əksini tapıb.

Ümumiyyətlə, Respublika Xatirə Kitabı cəmiyyət üçün faydalı iş görür, çoxcildlik ensiklopediya-nəşrlərində və əlamətdar günlər üçün hazırladığı xüsusi buraxılışlarında yaxın-uzaq tariximizdən səs-soraq verir.

Kitabın müəllifi Respublika Xatirə Kitabı Redaksiyasının rəhbəri Nəzakət Məmmədovadır.

9 May - Qələbə Günü ərəfəsində çap olunmuş xüsusi buraxılış müharibədə şücaət göstərmiş Azərbaycan övladlarının ölməz ruhuna dəyərli töhfədir.

### Allah rəhmət eləsin

**Cəlilabad rayon Veteranlar Təşkilatı Əmək veteranı Kərimov Bayar Abı oğlunun vəfatından kədərləndiyini bildirir və yaxınlarına dərin hüznlə başsağlığı verir.**

**Əziz oxucular, "Azərbaycan Veteranı" qəzeti üçün abunə yazıla bilərsiniz!**

**Qəzetimizə abunə olmaq üçün:**
**Azərbaycan Beynəlxalq Bankı ASC-nin Səbail filalı**
**Hesab nömrəsi AZ33IBAZ38090019442437115209**
**6 aylıq abunə haqqı - 7.5 AZN, 1 illik abunə haqqı - 15 AZN**

**Qeyd: Əziz və hörmətli oxucular, "Azərbaycan Veteranı" qəzetinə abunə olmaq üçün "Azərmətbuatyayımı" ASC şöbələrinə, poçtlara, Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatına və Təşkilatın rayon şöbələrinə müraciət edə bilərsiniz.**
**Əlaqə telefonları: (012) 440- 21-08 (012) 497- 63-58 (111)**

**"Azərbaycan Veteranı" qəzetinin elektron ünvanına (az.veteran@mail.ru) məqalələrinizi göndərməklə bizimlə əməkdaşlıq edə bilərsiniz. Qeyd edək ki, "Azərbaycan Veteranı" qəzetində dərc olunan məqalələrdəki faktlara və məlumatlara görə müəllif məsuliyyət daşıyır. Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.**

*Baş redaktor*
*Ülvi İBRAHİMLİ*

*Məsul katib*
*Şəhla QARAYEVA*

*Qəzet Ədliyyə Nazirliyində qeydiyyata alınıb.*
***Təsisçi:** Azərbaycan Respublikası Veteranlar Təşkilatının Rəyasət Heyəti*

*"Azərbaycan Veteranı" qəzeti.*
***VÖEN:** 1701285981*
*verilmə tarixi - 23.11.2011*

***Ünvan:** Bakı şəhəri, Nərimanov rayonu, Kaveroçkin küçəsi, 34*
***Əlaqə telefonu:** 012 440-21-08*
***e-mail:** az.veteran@mail.ru*
***Dövlət qeydiyyat nömrəsi** - 3486*
***Dövlət qeydiyyat tarixi** - 19.10.2011*

*Qəzet ayda iki dəfə "Azərbaycan Veteranı" qəzetinin bilgisayar mərkəzində yığılır, səhifələnir və "Veteran Nəşriyyatı" mətbəəsində nəşr olunur.*
*Qiyməti 1 manat 20 qəpik*
*Tiraj: 1200*